AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 42 (1387), 9 - 15 oktyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında cüdoçumuz qızıl medal qazandı



Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında komandamız ilk medalını qazanıb. Olimpiadanın cüdo yarışlarında 66 kiloqram çəki dərəcəsində çıxış edən yeniyetmə atletimiz Vüqar Talıbov bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Cüdoçumuz ilk görüşündə yəmənli Əhəd Əl-Saqheeraya şans verməyərək, ikinci görüşdəki tacikistanlı rəqibi Camşed Sulaimoni də məğlub edib. Dominikan Respublikasının idmançısı Antonio Tornalanı finala gedən yolda yeniyetmə cüdoçumuzun üçüncü rəqibi olub. Dominikanlı rəqibi üzərində də uğur qazanan idmançımız bu qələbəsi ilə finala yüksəlib. Bütün görüşlərini qələbə əzmi ilə keçirən cüdoçumuzun finaldakı rəqibi Rusiya idmançısı Abrek Naqueev olub. Qızıl medal uğrunda görüş gərgin keçsə də rusiyalı Abrek Naquçev üzərində parlaq qələbə qazanan Vüqar Talıbov qızıl medala sahib çıxaraq yeniyetmələr arasında Olimpiya çempionu olub. Cüdo yarışlarını Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə, Gənclər və İdman nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov da izləyiblər. Təltifetmə mərasimindən dərhal sonra idmançıların məşq zalına gələn MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və nümayəndə heyətinin üzvləri parlaq qələbəsi ilə komandamıza ilk medal qazandıran Vüqar Talıbovu təbrik edib və digər idmançılara da qarşıdakı yarışlarda uğurlar arzulayıblar.

*Beynəlxalq Şahmat Federasiyasının prezidenti cənab Arkadi Dvorkoviçə*

Hörmətli Arkadi Vladimiroviç,

Beynəlxalq Şahmat Federasiyasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Dünyada şahmat ənənələrinin inkişafı naminə bu məsul vəzifədə Sizə uğurlar arzulayıram.

Hörmətlə,

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2018-ci il.***

*Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti cənab Mahir Məmmədova*

Hörmətli Mahir Ələsgəroviç,

Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Həmvətənimizin belə məsul vəzifəyə seçilməsi Azərbaycanda şahmatın inkişafına və şahmatçılarımızın beynəlxalq miqyasda nailiyyətlərinə verilən yüksək qiymətin bariz şəkildə əks etdirir.

Qarşıdakı işinizdə Sizə uğurlar arzulayıram.

Hörmətlə,

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2018-ci il.***

## "Çempion olmaq şərəfli və sevindiricidir"

***Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının çempionu Vüqar Talıbov möhtəşəm qələbəsindən dərhal sonra "Olimpiya dünyası" qəzetinə eksklüziv müsahibə verib:***



"Bu cür mötəbər yarışda qızıl medal qazanmaq böyük uğurdur. Buenos-Ayresdən əvvəl Çində keçirilən Asiya kubokunda lisenziya əldə etmişdim. Bununla da özümə inamım xeyli artmışdı. Çalışırdım ki, mənə göstərilən etimadı doğruldum. Yarışlar çox gərgin keçdi. İlk rəqibim Yəmən idmançısı Al-Saqir Ahad oldu. Ona iki "vazari" xalı ilə qalib gəldim. Növbəti mərhələdə isə rəqibim tacikistanlı Camşed Sulaymonini məğlub etdim. Dominikanlı Antonio Tornalla yarımfinal görüşü çox çətin oldu. Buna baxmayaraq, yenə də qələbə qazanmağı bacardım. Finalda çox təcrübəli rusiyalı cüdoçu ilə qarşılaşdım. Abrek Naquçevlə görüşün asan olmayacağını bilirdim. Ona görə var qüvvəmi topladım. Diqqətlə güləşməyə başladım. Nəticədə təmiz qələbə ilə tatamidən qalib ayrıldım. Çox sevincliyəm. Çempion olmaq şərəfli və sevindiricidir".

## Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi olub

Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Olimpiadanın açılış mərasimi paytaxtın mərkəzi küçələrinin birində - 9 iyul prospektində təqribən 200 mindən çox insanın iştirakı ilə Olimpiya oyunları tarixində ilk dəfə olaraq idman festivalı çərçivəsində təşkil olunub. Olimpiadanın Təşkilat Komitəsi açılış mərasimini bu formatda keçirməklə kütləvilik baxımından həm oyunların, həm də Olimpiya Hərəkatının təbliğinə və inkişafına böyük töhfə verib. Buenos-Ayresin mərkəzi küçələrinin birində keçirilən açılış mərasimini 200 mindən çox insanın canlı olaraq, əsasən öz ailə üzvləri ilə birlikdə izləməsi də bu möhtəşəm tədbirin əhəmiyyətini xüsusilə artırıb.

*(ardı 2-ci səhifədə)*



## Kişi gimnastımız Portuqaliyada kuboka layiq görülüb

Portuqaliyanın Lole şəhərində batut gimnastikası və tamblinq üzrə ilin sonuncu dünya kuboku yarışları keçirilib.

Turnirin sonuncu günündə il ərzində təşkil olunmuş bütün dünya kuboklarının yekun xalları əsasında fərqlənmiş gimnastlara xüsusi kuboklar təqdim edilib. Azərbaycan gimnastı, tamblinq üzrə 2018-ci ilin Avropa çempionu Mixail Malkin bütün rəqiblərini üstələyərək kuboka layiq görülüb.

Batut gimnastikası üzrə sinxron proqramda qadın cütlüyümüz Veronika Zemlyanaya və Svetlana Makştaryova cari ildə bütün dünya kuboklarında topladıqları xalların hesabına əsasən birincilik əldə ediblər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

*"İdmanı təhsildən, təhsili idmandan ayrı təsəvvür etmək olmaz"*

Səh. 4

**Ölkə çempionatına start verilib**

Səh. 5

**Tələbələr arasında respublika birinciliyi**

Səh. 5

**Bakıda keçiriləcək FİG-in konqresində 118 ölkə iştirak edəcək**

Səh. 2

**İdman tarixini araşdıran görkəmli pedaqoq**

Səh. 7

**"Neftçi" liderliyini davam etdirir**

Səh. 7

***UEFA-nın yeni reytinq siyahısı açıqlanıb***

Səh. 7

**BUENOS-AYRES-2018**

**Yeniyetmələrin III Yay Olimpiya Oyunları**

*"Olimpiya dünyası" qəzetinin foto-obyektivində*

Səh. 3

# Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi olub



(əvvəli 1-ci səhifədə)

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak edən ölkələrin milli bayraqlarını idmançılar təntənəli şəkildə insanların önündən keçiriblər. Azərbaycan Respublikasının dövlət bayrağını boksçumuz Nurlan Səfərov daşıyıb. Olimpiadanın açılış mərasimində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax çıxış edərək bu oyunların əhəmiyyətini qeyd edib və yeniyetmə idmançılara yarışlarda uğurlar arzulayıb. Argentinanın məşhur idmançıları Pedro İbarra və Sesilia Karrantsa Olimpiya məşəlini 1936-cı ildə şəhərin 400 illiyi münasibətilə inşa edilmiş və yerli sakinlər tərəfindən El Obelisco adlandırılan abidənin önündə alovlandırıblar. Argentina Prezidenti Maurisio Makri Oyunları açıq elan edib və möhtəşəm açılış mərasimi maraqlı proqramlarla davam edərək başa çatıb.

Məlumat üçün bildirək ki, Yeniyetmələrin Olimpiya Oyunları Beynəlxalq Olimpiya Komitəsinin dəstəyi və himayəsi altında 14-18 yaşlı idmançılar arasında keçirilir.Azərbaycan idmançıları bu oyunlarda ilk gündən- 2010-cu ildən iştirak edir. 2010-cu il avqustun 14-dən 26-na kimi Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya Oyunları yeniyetmə idmançıların, idmansevərlərin yaddaşında həmişəlik qalıb. İdman və Olimpiya oyunlarının tarixinə qızıl hərflərlə yazılan bu olimpiadada yeniyetmələr dostluq, qardaşlıq, biribirinə hörmət, məhəbbət nümayiş etdiriblər. Onlar bir daha sübut ediblər ki, idman ayrı-ayrı xalqların, dövlətlərin arasında sülh, əməkdaşlıq, mehriban münasibət yaradan bir qüvvədir.

Sinqapur-2010 Yay Olimpiya Oyunlarında dünyanın 204 ölkəsindən 3531 idmançı 26 növ üzrə yarışlarda mübarizə aparıb. Olimpiadada 6 idman növü üzrə 12 idmançı (5 güləşçi, 3 boksçu, 1 ağırlıqqaldıran, 1 cüdoçu, 1 taekvondoçu, 1 kanoeçi) ilə təmsil olunan Azərbaycan komandası yarışları 8 medalla başa vurub. Sinqapurda 12 gün davam edən və yalnız 97 ölkənin medal qazandığı yarışlarda ölkəmiz ABŞ, Çin, Rusiya kimi ölkələrlə bir sırada yer alıb. Ölkəmiz 8 medalla (5 qızıl, 3 gümüş) dünya ölkələri sırasında 11-ci, Avropa ölkələri sırasında 6-cı yeri tutub. İdmançılarımızdan Sinqapur-2010 Olimpiadasında Murad Bazarov (yunan-Roma güləşi, 42 kq), Elman Muxtarov (yunan-Roma güləşi, 50 kq), Patimat Baqomedova (qadın güləşi, 52 kq), Nicat Rəhimov (ağırlıqqaldırma, 69 kq), Əli Maqomeddabirov (sərbəst güləş, 100 kq) qızıl medal qazanıb. Kənan Quliyev (sərbəst güləş, 54 kq), Salman Əlizadə (48 kq) və Elvin İsayev (boks, 57 kq) isə Olimpiadanın gümüş medalına layiq görülüb.

Yeniyetmələrin II Olimpiya Oyunları isə 2014-cü ildə Çinin Nankin şəhərində keçirilib. Nankin-2014 Olimpiadasında 201 ölkədən 3600-ə qədər atlet 28 idman növündə mübarizə aparıb. Azərbaycan atletləri Yeniyetmələrin II Olimpiya Oyunlarını 12 medalla (5 qızıl, 6 gümüş 1 bürünc) 10-cu pillədə başa vurub. Qeyd edək ki, yarışlarda yalnız 87 ölkənin təmsilçiləri medal qazana bilmişdilər.



Təmsilçilərimizdən Teymur Məmmədov (63 kq), İqbal Hacızadə (100 kq), Rüfət Hüseynov (49 kq), Leyla Qurbanova (52 kq, qadın güləşi), İslambek Dadov (69 kq, yunan-Roma güləşi), Səid Quliyev (73 kq, taekvondo) qızıl, Leyla Əliyeva (44 kq), Natiq Qurbanlı (55 kq, hər ikisi cüdo), Ceren Özbek (44 kq, taekvondo), Cabbar Nəcəfov (50 kq, yunan-Roma güləşi), Boris Yotov (akademik avarçəkmə) gümüş və Nazim Babayev (atletika) bürünc medala qazanmışdılar.

Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında isə dünyanın 206 ölkəsindən 3998 idmançı 32 idman növündə qüvvəsini sınayır. Yarışların keçirilməsi əsasən dörd ərazi-Urban, Yaşıl, Teknopolis və Olimpiya parkları üzrə planlaşdırılıb. Azərbaycan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 17 idmançı ilə təmsil olunur. Yarışların ilk günü yeniyetmə idmançılarımız cüdo, stolüstü tennis, taekvondo, idman gimnastikası üzrə yarışlarda qüvvələrini sınayıblar. Əvvəlcə cüdoçularımız Vüsalə Kərimova (44 kq) və Vüqar Talıbov (66 kq) rəqibləri ilə münasibətlərinə aydınlıq gətiriblər. Vüsalə Kərimova son nəticədə yarışları 7-ci yerdə başa vursa da, digər cüdoçumuz Vüqar Talıbov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Yarışları Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer və digər rəsmi şəxslərlə yanaşı, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə, Gənclər və İdman nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov da izləyiblər.



## "Azərbaycan bayrağını Oyunlarda yüksəklərdə dalğalandırmaq qürurvericidir"

***Ramiz Ramizzadə (cüdo üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandanın baş məşqçisi):***

- Buenos-Ayresdə keçirilən yarışa çox ciddi hazırlaşmışdıq. Avropa birinciliyi başa çatandan sonra bütün diqqətimizi Yeniyetmələrin III Olimpiya Oyunlarına yönəltmişdik. Sumqayıt Olimpiya-idman Kompleksində səmərəli və gərgin təlim-məşq toplanışı keçmişdik. Çəkdiyimiz əziyyət öz bəhrəsini verdi. Hələ Argentinaya gəlməmişdən əvvəl Azərbaycan Cüdo Federasiyası qarşısında öhdəlik götürmüşdük. Bildirmişdik ki, necə olur olsun, Cənubi Amerikadan vətənə medalla qayıdacağıq. Bunu bacardıq. Azərbaycan bayrağını Oyunlarda yüksəklərdə dalğalandırmaq qürurvericidir.

## "Bu medal Vüqarın ən yüksək nailiyyətidir"

***Elmar Babanlı (Azərbaycan Cüdo Federasiyasının baş katibi):***



- Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında komandamıza ilk medalı cüdoçumuz Vüqar Talıbov qazandırdı. Bu nəticə bizim üçün sevindirici haldır. Qeyd edim ki, Vüqar bu ildən etibarən yeniyetmələrin yarışlarında iştirak edir. O, Buenos-Ayres-2018-in ən gənc idmançılarından biri olsa da, yarışlarda uğurlu çıxışı ilə məşqçilər heyətinin ümidlərini doğrultmağı bacardı. Bu, medal Vüqarın ən yüksək nailiyyətidir. Qeyd edim ki, bu Azərbaycanın Yeniyetmələrin Yay Olimpiya Oyunlarının cüdo yarışları tarixində qazandığı ilk qızıl medaldır. Buna qədər komandamız yeniyetmələrin olimpiadasında yalnız iki gümüş medala layiq görülmüşdü. Həmin medalları komandamıza Nankin Olimpiadasında Natiq Qurbanlı və Leyla Əliyeva qazandırmışdı. Vüqar Talıbov Buenos-Ayresdə təşkil olunan Yeniyetmələrin III Yay Olimpiya oyunlarında yeni bir uğur qazandı.

## Bakıda keçiriləcək FİG-in konqresində 118 ölkə iştirak edəcək

Bakı dekabrın 2-3-də Beynəlxalq Gimnastika Federasiyasının (FİG) Konqresinə ev sahibliyi edəcək. FİG-nin rəhbər orqanlarından olan Şuranın iclası ilk dəfə 2017-ci ilin mayında paytaxtımızda təşkil edilib. FİG-nin ən ali orqanı hesab edilən konqres isə ölkəmizdə ilk dəfə keçiriləcək.

Bu sözləri Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə aerobika üzrə ölkəmizdə keçirilən 4-cü Azərbaycan çempionatı və Bakı birinciliyində jurnalistlərə müsahibəsində deyib.

Baş katib bildirib ki, FİG-in konqresi iki ildən bir keçirilir. Hər Olimpiya dövrünün sonuncu ilində keçirilən konqres isə hesabat-seçki xarakteri daşıyır. Dekabrda ölkəmizdə təşkil ediləcək konqresdən əvvəl bir qayda olaraq noyabrın 29-da FİG-in Prezident Komissiyasının iclası Bakıda keçiriləcək. Noyabrın 30-dan dekabrın 1-dək ali gimnastika qurumunun paytaxtımızda icra komitəsinin iclasları keçiriləcək. Bundan sonra konqres öz işinə başlayacaq.

Nurlana xanımın sözlərinə görə, "FİG-in konqresində 118 ölkədən ümumilikdə, 300-dək nümayəndə iştirak edəcək: "Konqreslərdə FİG-in prezidenti və texniki əlaqələndiricisinin, həmçinin ali qurumun hər bir gimnastika növü üzrə texniki komitələrinin rəhbərlərinin hesabatları dinlənilir. Konqresdən sonra Bakıda bir neçə iclas təşkil olunacaq. Onlardan biri FİG-in texniki iclası olacaq. Bu iclas dekabrın 4-nə təsadüf edəcək. Həmin gün beynəlxalq qurumun "Qadınlar gimnastikada" komissiyasının iclası da keçiriləcək. FİG-yə gimnastikanın 6 yarış növü daxildir. Dekabrın 5-9-da Bakıda onlardan ikisinin - qadın idman gimnastikası və kişi idman gimnastikası Texniki komitələrinin iclasları baş tutacaq".

## Lisenziya xarakterli yarışda 5 medal



Kazanda keçirilən sambo üzrə Tatarıstan Respublikası Prezidentinin mükafatı uğrunda "A" kateqoriyalı beynəlxalq turnirə yekun vurulub. Yarışlarda Azərbaycanın yığma komandası da mübarizə aparıb.

Azərbaycan yığması beynəlxalq turniri uğurla başa vurub. İdmançılarımızdan Ağasif Səmədov (52 kq), Cavidan Qarayev (62 kq), Abdulla Abdullayev (74 kq), Emil Həsənov (68 kq) yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar. Fuad Məmmədov (62 kq) isə turniri üçüncü pillədə başa vurub.

Qeyd edək ki, bu turnir Belarusun paytaxtı Minskdə keçiriləcək ikinci Avropa Oyunlarına lisenziya xalı verən yarış olduğu üçün xüsusi əhəmiyyət daşıyırdı. Bir aydan sonra komandamız Rumıniyanın paytaxtı Buxarestdə kişilər arasında keçiriləcək dünya çempionatında iştirak edəcək. Mundial həm də Minskdəki Avropa Oyunlarına ən yüksək xal verən əsas yarış olacaq. Buxarestdəki dünya çempionatı noyabrın 8-dən 12-dək keçiriləcək.

## Ölkəmizdə ağırlıqqaldırma üzrə beynəlxalq yarışın keçirilməsi məsələsi müzakirə olunub

Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) nümayəndə heyəti Macarıstanın paytaxtı Budapeştdə işgüzar səfərdə olub. Federasiyanın birinci vitse-prezidenti Tofiq Heydərovun başçılıq etdiyi nümayəndə heyəti Beynəlxalq Ağır Atletika Federasiyasının (BAAF) baş ofisində görüşlər keçirib.

Görüşlərdə ölkəmizdə, həmçinin dünyada ağırlıqqaldırma idman növünün inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Tofiq Heydərovun BAAF-ın prezidenti Tomaş Ayan ilə görüşündə əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub.



Müzakirə edilən məsələlər arasında gələn il Azərbaycanda ağırlıqqaldırma idman növü üzrə beynəlxalq yarışın keçirilməsi, həmçinin dopinqlə mübarizənin ən yüksək səviyyədə davam etdirilməsi və gücləndirilməsi əsas yer tutub. Ölkəmizdə bu idman növünün inkişafı məqsədilə təsis edilən AAAF ilə BAAF arasında qarşılıqlı əməkdaşlıq barədə ilkin razılıq əldə edilib. Bu razılaşmaya əsasən beynəlxalq təlim-məşq toplanışlarının AAAF-a məxsus məkanlarda, "AAAF Park" tipli universal istifadəli komplekslərdə təşkili, qitə və dünya səviyyəsində keçirilən mötəbər ağırlıqqaldırma yarışlarının Azərbaycanda müstəsna yayım hüququnun əldə olunması və digər məsələlərdə razılıq əldə edilib.

Sonda görüş və müzakirələrin mütəmadi qaydada davam etdirilməsi qərara alınıb.

## FİDE-nin yeni prezidenti seçilib

Rusiya Federasiyası Baş nazirinin keçmiş müavini Arkadi Dvorkoviç Beynəlxalq Şahmat Federasiyasının (FİDE) yeni prezidenti seçilib.

FİDE-nin prezidenti vəzifəsinə seçkilər Batumidə təşkil olunan 43-cü Ümumdünya Şahmat Olimpiadası çərçivəsində keçirilib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov isə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) vitse-prezidenti təyin olunub.

Seçkilərdən əvvəl A.Dvorkoviç qalib gələcəyi təqdirdə komandasına digər üzvlərlə yanaşı, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədovu da daxil edəcəyini demişdi. O, həmçinin FİDE-nin fəaliyyətində aşkarlığa üstünlük verəcəyini, müxtəlif ölkələrdən sponsorların cəlb edəcəyini vurğulamışdı.

Qeyd edək ki, FİDE-nin sonuncu prezidenti Kirsan İlyümjinov seçkilərdə namizədliyini irəli sürməmişdi.

* * *

Gürcüstanın Batumi şəhərində keçirilən 43-cü Ümumdünya Şahmat Olimpiadasına yekun vurulub.



Kişilərin yarışında Çin, ABŞ və Rusiya komandalarının hesabında 18 xal olub. Əlavə göstəricilərə görə, Çin millisi Olimpiadanın qalibi olub. ABŞ ikinci, Rusiya isə üçüncü pillədə yer alıb. Azərbaycan yığması olimpiadada 15-ci pillədə qərarlaşıb.

Qadın şahmatçıların yarışında da çinli zəka sahibləri fərqləniblər. Çin və Ukrayna komandalarının aktivində 18 xal olsa da, Asiya təmsilçisi qızıl medallara sahib olub. Ukrayna şahmatçıları gümüş medalla kifayətləniblər. Gürcüstan millisi 17 xalla üçüncü olub. Azərbaycan şahmatçıları isə olimpiadanı 16 xalla 10-cu yerdə başa vurublar.

Üç şahmatçımız öz lövhəsində göstərdiyi nəticələrə görə medallara layiq görülüb. Kişi şahmatçılardan ibarət milli komandada ikinci lövhədə çıxış edən Teymur Rəcəbov və dördüncü lövhədə mübarizə aparan Rauf Məmmədov bürünc medal qazanıblar. Qadınlardan ibarət millimizdə isə üçüncü lövhədə yarışan Xanım Balacayeva qızıl medala layiq görülüb.

* * *

2022-ci ildə Ümumdünya Şahmat Olimpiadasına Minsk ev sahibliyi edəcək. Bu qərar Gürcüstanın Batumi şəhərində Beynəlxalq Şahmat Federasiyası (FİDE) Baş Assambleyasının iclasında qəbul edilib.

Şahmat olimpiadasının bu ölkədə keçirilməsi barədə müraciətini Belarus FİDE-nin Prezident Şurasının bu ilin aprelində Minskdə təşkil olunan iclası zamanı vermişdi. Belarus müraciətlər müsabiqəsində Cənubi Koreya və Tunisi geridə qoyub.

Belarusun idman və turizm naziri Sergey Kovalçuk ölkəsinin imkanları barədə assambleya üzvlərinə məlumat verib.

2018-ci il Ümumdünya Şahmat Olimpiadası bu günlərdə Batumidə keçirilir. Minsk 2022-ci ildə təşkil ediləcək 45-ci Ümumdünya Şahmat Olimpiadasına estafeti 2020-ci ildə Xantı-Mansiyskdən qəbul edəcək.

# BUENOS-AYRES-2018

## Yeniyetmələrin III Yay Olimpiya Oyunları

*“Olimpiya dünyası” qəzetinin foto-obyektivində*





























AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# “İdmanı təhsildən, təhsili idmandan ayrı təsəvvür etmək olmaz”

***Sağlam bədən quruluşuna malik olmaq hər kəsin arzusudur. Bunu təsadüfi əldə etmək isə mümkün deyil. Bunun üçün gərək, zəhmət çəkəsən, iradə nümayiş etdirəsən. Nəticədə insan arzuladığı bədən quruluşuna sahib olmaqla yanaşı, həm də əzmkarlığa, möhkəm xaraktera yiyələnir. İdmanla daimi dostluq edənlər bəzi hallarda zahirən kobud görünsələr də, ədalətli və humanist olur, digərlərinə qarşı həssas davranırlar. Mütəxəssislərin fikrincə, idmanla məşğul olanlar digərlərinə nisbətən daha cəsarətli olur, həyatda daha qəti qərarlar verirlər.***

Təsadüfi deyildir ki, bu gün ölkəmizdə idmanın inkişaf etdirilməsi dövlətin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə yüzlərlə idman klubu və cəmiyyətlər öz güclərini səfərbər edir.

Psixoloqların fikrincə, idmanın müxtəlif növləri ilə müntəzəm məşğul olan uşaq və yeniyetmələr öz həmyaşıdlarına nisbətən daha diqqətli olur, güclü yaddaşları ilə seçilirlər. Həmçinin onlar ətraflarında baş verən hadisələrə də tez reaksiya verir, öz fikirlərini bildirməkdən çəkinmirlər. Bu istiqamətdə məktəblərdə tədris olunan “Fiziki tərbiyə” fənninin xüsusi əhəmiyyəti var. Ən azından ona görə ki, hər bir məktəbli idmanla mütəmadi məşğul ola bilir. Digər bir tərəfdən isə idman məşğələləri şagirdlərin təhsildə uğur qazanmalarına da birbaşa kömək edir. Müşahidələr göstərir ki, “Fiziki tərbiyə” dərslərində fəal iştirak edənlər digər fənn müəllimlərinin də etimadını doğruldur və onların da dərs saatlarında aktiv olurlar.



## “Həm elmdə, həm də idmanda böyük qələbələr üçün çalışırıq”

İdman və bədən tərbiyəsi həm də yaddaşı gücləndirir, diqqəti artırır. Bu, istiqamətdə məktəb idmanının xüsusi əhəmiyyəti var. Belə ki, təhsil müəssisələrində keçirilən idman və bədən tərbiyəsi məşğələləri şagird və tələbələrin dərslərdə daha fəal, çevik olmalarına kömək edir. Sevindirici haldır ki, son illər təhsil ocaqlarında idman dərslərinin keçirilməsinə xüsusi diqqətlə yanaşılır. Özünün idman uğurları ilə seçilən məktəblərdən biri də Əhmədli qəsəbəsində yerləşən 261 saylı məktəb-liseydir. Haqqında danışacağım təhsil ocağı təhsillə idmanı parelel inkişaf etdirməyi qarşısına məqsəd qoyub. Məktəbin direktoru Abuzər Əsədovun fikrincə, məktəblilərin təhsil sahəsində uğur qazanmaları, onların sağlam ruhda tərbiyə alması və bilavasitə idmanla məşğul olmaları üçün əsas şərtdir. “Bizim fəaliyyətimizdə təhsil və idman vəhdət təşkil edib. Əgər belə olmazsa, uğursuzluqla üzləşə bilərik. Bəzi valideynlər və hətta şagirdlər də belə düşünürlər ki, idman və təhsil paralel inkişaf edə bilməz. Bu, çox səhv fikirdir. İdmanda və elmdə uğur qazanmaq arzusu insana digər sahə ilə məşğul olmamaq üçün bəhanə ola bilməz. Əksinə, əsl idmançı olmaq istəyən təhsili, bacarıqlı elm adamı olmaq istəyən isə idmanı “gərək yoxdur” deyərək bir kənara atmamalıdır. Ümumiyyətlə başa düşmək lazımdır ki, idmanı təhsildən, təhsili idmandan ayrı təsəvvür etmək olmaz. Məsələn fiziologiyanı, anatomiyanı, habelə idmanın ayrı-ayrı sahələrinin nəzəriyyəsini bilməyənlər yaxşı idmançı ola bilməzlər. Eyni zamanda idmanla məşğul olmayanlar, günün böyük əksəriyyətini süst keçirənlər oxuduqlarını qavramaqda, dəqiq elmlərin mənimsənilməsində çətinlik çəkə bilərlər. Bunu, təcrübələr və aparılan müşahidələr sübut edir. İdman, hərəki vərdişlər ürəyin ritmik işini, qan-damar sisteminin normal fəaliyyətini təmin etməklə yanaşı, həm də beyinin mövcud məsələni daha tez qəbul etməsinə, daha iti düşünməyə kömək olur. Müəllimlərimizin böyük əksəriyyəti də idmanla təhsilin vəhdətdə inkişaf etdirilməsinin tərəfdarıdırlar. Hətta elə müəllimlərimiz var ki, dərsə başlamazdan əvvəl bir neçə dəqiqə şagirdlərin gözlərini istirahət etdirmələrinə, çiyinlərini, boyunlarını hərəkət etdirməyə çağırırlar. Mən özüm dəfələrlə bu kimi halların şahidi olmuşam. Təsadüfi olaraq demirlər ki, sağlam bədəndə sağlam ruh olar. Atalarımızın idman və təhsilin bir-biri ilə vəhdət təşkil etməsinə dair bu cür kəlamları çoxdur. Biz onlardan dərs çıxarır və həm elmdə, həm də idmanda böyük qələbələr üçün çalışırıq. Bu gün biz müəllimləri və elə valideynlərin özünü də ən çox narahat edən məsələlərdən biri şagirdlərimizin qamətlərinin düzgün olmaması, parta arxasında əyləşərkən bellərinin əyilməsidir. Ola bilsin ki, həmin uşaq idmanla məşğul olmasın. Ancaq biz əlimizdən gələni etməliyik ki, onlar düz gəzsinlər, düz otursunlar. Adətən dəhlizdə və siniflərdə belə uşaqları görəndə bunu onlara irad tuturam. Əslində nəticəsi də olur. Amma onu da vuğulayım ki, bu məsələ ilə daha çox ibtidai sinif müəllimləri məşğul olmalıdırlar. Çünki sonradan həmin mənfi halı aradan qaldırmaq daha çətin olur”, - deyə Abuzər müəllim bildirdi.

## Çəkilən zəhmətlər öz bəhrəsini verir

Müsahibimizin də söylədiyi kimi, 261 saylı tam orta məktəb həm təhsil, həm də idman sahəsindəki nailiyyətləri ilə digər təhsil müəssisələrindən fərqlənir. Qazanılan uğurlardan danışan məktəb direktoru söylədi ki, onların hər birinin arxasında gərgin zəhmət, böyük həvəs və əzmkar iradə dayanır. “Bizim şagirdlərimizdən Elman Əsgərov kombat ciu-citsu idman növü üzrə dünya çempionudur. Digər tələbəmiz Sabir Səfərovun cüdo idman növündə uğurlu nəticələri var. O, 42 kq çəki dərəcəsində Azərbaycan çempionatının gümüş mükafatçısıdır. Həmçinin Fəxrəddin Əlizadə “Sumqayıt gəncləri narkomaniyaya yox deyir”devizi altında keçirilən cüdo yarışında çempion adını qazanaraq diploma layiq görülüb. Məktəbimizdə cüdo ilə yanaşı, şahmata da böyük maraq var. Şagirdimizdən Əli Quliyev 15 yaşınadək yeniyetmələr arasında keçirilən şahmat üzrə Bakı birinciliyində bütün rəqiblərindən üstün olub. Bu cür fərdi nailiyyətlərimiz onlarladır. Qeyd etmək yerinə düşər ki, orta təhsil müəssisələri arasında keçirilən kollektiv yarışlarda, spartakiadalarda da məktəbimiz həmişə yüksək yerlərdən birini tutur. Bunlarla yanaşı, şagirdlərimizin təhsil sahəsində də nailiyyətləri çoxdur. Məsələn beşinci sinif şagirdi Raul İsmayıllı “ALPLOGO-2018” proqramlaşdırma Olimpiadasının respublika turunun qalibi olub. Məktəblilər arasında təşkil olunan fənn olimpiadasında 10-cu sinif şagirdimiz Vüqar Ceyhunoğlu tarix üzrə respublika mərhələsinin qalibi olaraq “Birincilərin birincisi” adına layiq görülüb. 2017-ci ildə keçirilən fənn olimpiadasında fizika fənni üzrə Yasin Gülməmmədli, informatikadan isə Əfruz Məstiyeva ikinci oldular. Bizim bütün pedaqoji kollektivimizin həmişə fəxr etdiyi və bundan sonra daim fəxr edəcəyimiz məzunlarımız da var. Bir il əvvəl məzun olan Nigar Eyvazzadə dəfələrlə beynəlxalq müsabiqələrdə iştirak etmiş, ən uğurlu nəticələrə müəllimlərini sevindirmişdir. Nigarın təhsil aldığı müddət ərzində nümunəvi şagird kimi tanınmasına görə biz onu “Qızıl medal”la təltif etmişdik. Məzunumuz qəbul imtahanında 655 bal toplamışdı. O, hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər fakültəsində təhsil alır. Göründüyü kimi, bizim həm idmanda, həm də təhsildə əldə etdiyimiz nailiyyətlər kifayət qədərdir. Əlbəttə, bu uğurların heç biri təsadüfi deyil. Onların arxasında şagird və tələbələrimizin aylarla, hətta illərlə çəkdikləri zəhmət, möhkəm əzmkarlıq var”, - deyə müsahibimiz əlavə etdi.

## “Şagird müəllimin güzgüsüdür”

Hər bir bar verən ağacın bağbanı olur. Şübhəsiz ki, böyük qələbələrə gedən yolda məktəblilərə də onların müəllimləri yol göstərirlər. Onlar bu yolda bəzən şagirdərin özləri qədər həyəcan keçirir, uğurlarına sevinir, məğlubiyyətlərinə kədərlənirlər. Abuzər Əsədov şagirdlərin hər bir nəticəsində, qələbələrində müəllimlərin rolunun mühüm olduğunu diqqətə çatdırdı: “Şagirdlik elə yaş dövrüdür ki, bu zaman kəsiyində uşaq və yeniyetmə hələ yeni-yeni yaxşını-pisdən ayırmağı bacarır. Həmin müddətdə valideynlərlə yanaşı, mütləq müəllimlər də uşaqların hərəkətlərinə nəzarət etməli, onlara düzgün yol göstərməlidirlər. Bu, psixoloji, pedaqoji və metodiki məharət tələb edir. Yəni müəllim şagirdinə təkcə konkret fənni öyrətməklə kifayətlənməyib, həm də onu layiqli vətəndaş kimi yetişdirməyə çalışmalı, düzgün tərbiyə etməlidir. Riyaziyyatçını riyaziyyat müəllimindən, tarixçini tarix müəllimindən, idmançını idman müəllimindən fərqləndirən əsas cəhətlərdən biri də elə budur. Bizim bütün nəticələrimizdə müəllimlər böyük pay sahibidirlər. Başqa sözlə desək, şagird müəllimin güzgüsüdür. Sevindirici haldır ki, pedoqoji kollektivimizin böyük əksəriyyəti demək olar ki, öz işini mükəmməl bilən müəllimlərdən ibarətdir. Məsələn elə fiziki tərbiyə müəllimlərimizdən Məmməd Əliyev illərdir ki, məktəbimizdə şagirdlərə idman dərsləri keçir. Kifayət qədər təcrübəyə və bacarığa malikdir. O, Azərbaycan Futbol Federasiyasının keçirdiyi “D” lisenziyalı məşqçilik kursunda xüsusi sertifikatla təltif olunub. Həmçinin fiziki tərbiyə müəllimlərimizdən Şəridə Cəfərova, Nəzakət İbrahimova, gənc müəllimlər Əkbər Sadıqov, Valeh Əsədov da şagirdlərin sevgisini qazanmış idman mütəxəssislərindəndirlər. Qeyd etmək istərdim ki, fənn olimpiadalarında əldə etdiyimiz nailiyyətlər də birbaşa fənn müəllimlərinin peşəkarlığı ilə bağlıdır. Tarix fənnindən Güləndam İsrafilovanın, Azərbaycan dili-ədəbiyyat fənnindən Səddinur Sultanovanın, fizikadan Rəna İlyasovanın, Yaşar Abbasovun, kimyadan Zərinə Eyvazovanın və digərlərinin adlarını çəkə bilərəm ki, onların şagirdləri həmişə öz uğurları ilə bizi sevindiriblər. Onu da söyləyim ki, məktəbimiz bir il əvvəl əsaslı şəkildə təmir edildi, o cümlədən idman zalımız da yeniləndi, zəruri avadanlıqlarla təmin olundu. Sözsüz ki, bu da idmançı şagirdlərimizə müxtəlif idman növlərinin sirlərinə daha yaxından yiyələnməyə və həmin idman növlərində daha parlaq nailiyyətlər qazanmağa kömək olur və olacaq”, - deyə müsahibimiz vurğuladı.



## “Məktəbimizdə şahmatın inkişafına xüsusi həssaslıqla yanaşılır”

Şahmat fiziki idman növü olmasa da, hər kəs üçün, xüsusilə də məktəblilər üçün çox vacibdir. Məhz şahmatın insanda aşıladığı bir çox müsbət keyfiyyətlər nəzərə alınaraq, son illər əksər məktəblərdə bu idman növü ayrıca fənn kimi tədris olunur. Müntəzəm şahmat oynamağın məktəblilər üçün çox əhəmiyyətli olduğunu vurğulayan məktəb direktoru söylədi ki, onun rəhbərlik etdiyi təhsil ocağında şagirdlər arasında bu idman növünə maraq kifayət qədərdir. “Bir çox məktəblərdə olduğu kimi, bizim məktəbdə də şagirdlərə həftədə bir dəfə olmaqla şahmat dərsləri keçirilir. Bu, səbəbsiz deyil. Belə ki, şahmat xüsusilə uşaq və yeniyetmələrin əqli təfəkkürünün inkişaf etdirilməsi üçün çox vacibdir. Müşahidələr də göstərir ki, yaxşı şahmat oynayanlar dərslərində də fərqlənirlər. Belə tələbələr cəbr, həndəsə kimi analiz tələb edən sahələrdə yaşıdlarına nisbətən daha uğurlu olurlar. Digər bir tərəfdən isə, bu gün şahmat ölkəmizdə ən çox inkişaf etmiş, kütləvilik qazanmış idman növlərindən biridir. Bu, bizi sevindirməyə bilməz. Çox istərdim ki, bizim gələcəkdə də Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Eltac Səfərli, Qədir Hüseynov kimi tanınan, bütün dünyaya səs salan qrossmeysterlərimiz olsun. Məhz bu səbəblərdən də məktəbdə həmin idman növünün tədrisinə xüsusi həssaslıqla yanaşırıq. Müəllimlərimiz Məmməd Əliyev və Pərviz Əliyev bu idman növünün sirlərini şagirdlərimizə öyrədirlər. Təcrübələr göstərir ki, şagirdlər də şahmatın tədrisinə maraq və həvəslə yanaşırlar. Sevindirici haldır ki, bizim şahmat idman növündə uğurlarımız da kifayət qədər çoxdur. Arzu edirəm və inanıram ki, şagirdlərimiz arasında şahmata maraq gələcəkdə də böyük olacaq. Şahmatda qalib gələnlər həyatda nadir hallarda uduzurlar”, - deyə Abuzər müəllim qeyd etdi.

## “Vətənpərvərlik hissi hər şeydən üstündür”

Bu gün müasir gənclərimizin milli-vətənpərvərlik ruhunda tərbiyə olunmaları dövlətin əsas prioritetlərindən biridir. Bu istiqamətdə idman məşğələlərinin böyük rolu var. Bəzən insan özü belə fərqində olmadan idman onda vətənpərvərlik hissini daha da gücləndirir. İdmançı başa düşür ki, vətənin şərəfi, bayraq, himn üçün mübarizə aparmaq lazımdır. 2002-ci ildən 261 saylı məktəb-liseydə direktor vəzifəsində çalışan Abuzər Əsədovun sözlərinə görə, idman hər bir fərdə vətənpərvərliyin nə olduğunu başa salan ən ideal vasitədir. “Bir çox valideynlər idmanın həm də övladlarının vətənpərvərlik hissini yüksəltdiyini unudurlar. Halbuki bunu yaddan çıxarmaq olmaz. Doğrudan da, hər bir insanda vətənpərvərlik hissinin üzə çıxması və güclənməsi üçün idman böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, milli qəhrəmanlarımızın əksəriyyəti həm də peşəkar idmançı olublar. Misal üçün, Mübariz İbrahimov. Bəzən uşaq və yeniyetmə idmana başlayana kimi bayrağın, himnin necə müqəddəs və əziz bir məfhum olduğunu anlamır. Ancaq məşqlərdə iştirak edəndən, yarışlara çıxandan sonra tədricən bunu başa düşürlər. Məsələn idmançı yarışda erməni millətindən olan rəqiblə mübarizə aparır və başa düşür ki, qalib gəlməkdən başqa yolu yoxdur. Uduzmağı özünə qadağa qoyur və bir neçə dəqiqə sonra Azərbaycan Respublikasının bayrağını dalğalandırmaq, himnini səsləndirmək üçün var gücü ilə çalışır. Həmin dəqiqələrdə onu düşündürən ancaq vətənin şərəfini qorumaq olur. Bu mənada idmançını əsgərlə müqayisə etmək də olar. Belə anlarda idmançı çox vaxt məqsədinə çatır. Çünki vətənpərvərlik hissi hər şeydən üstündür. Sözün əsl mənasında vətənpərvər olan idmançı özündən dəfələrlə güclü rəqibinə də qalib gələ bilər. Məktəblilərin vətənpərvərlik ruhunda böyüməsi xüsusilə vacibdir. Çünki gələcək onların əlindədir. Elə buna görə də orta və ali təhsil ocaqlarında idman dərslərinin ayrıca fənn kimi tədris olunmasını məqsədəuyğun hesab edirəm”, - deyə həmsöhbətimiz vurğuladı.

## “Bizim gələcəyimiz sağlam əllərdədir”

Məktəblilərdə hərbi-vətənpərvərlik hissinin yüksəlməsinə təkan verən ikinci bir amil isə 10 və 11-ci siniflərdə “Gənclərin çağırışaqədərki hərbi-hazırlığı” fənninin tədrisidir. Belə ki, hər bir orta məktəbin hərbi müəlliminin rəhbərliyi ilə keçirilən bu fənn şagirdləri, xüsusilə də oğlanları fövqəladə hadisələrdə soyuqqanlı və ehtiyatlı davranmağa çağırır, həmçinin onları hərbi xidmətə, vətənin müdafiəsinə hazırlayır. 261 saylı məktəb-liseydə “Gənclərin çağırışaqədərki hərbi hazırlığı” fənnini təcrübəli hərbçi Rövşən Əzizov tədris edir. Müsahibimizin bildirdiyinə görə, məktəbin hərbi rəhbəri ilə şagirdlər arasında münasibət çox yaxşıdır. “Rövşən müəllim uşaqlarla asanlıqla dil tapır. Hər il müntəzəm olaraq rayon məktəbləri arasında “Şahinlər” adlı hərbi-vətənpərvərlik oyunları keçirilir ki, məktəbimizin “şahinlər”i həmişə həmin yarışda qənaətbəxş nəticə əldə edirlər. Bu, çox sevindiricidir. Qazanılan nəticələrdən belə qənaətə gəlmək olar ki, bizim gələcəyimiz sağlam əllərdədir. Ümumiyyətlə düşünürəm ki, orta məktəblərdə “Gənclərin çağırışaqədərki hərbi hazırlığı” fənninin tədris olunması gənclərin tələblərinə tam cavab verir. Əminliklə deyə bilərəm ki, hərbi rəhbərlər şagirdlərə təkcə orduda davranışı, silahlarla rəftarı öyrətmirlər, həm də onlara milli qəhrəmanlarımızı nümunə göstərir, bəzilərinin hətta ürəklərinin ən dərin qatlarında yatan hərbi-vətənpərvərlik hisslərinin üzə çıxması üçün çalışırlar. Bizim məktəbimiz “Şöhrət ordeni” ilə xatirəsi əbədiləşdirilmiş şəhid İlham Məmmədovun adını daşıyır. Fikirləşirəm ki, bu, şagirdlərimizə əlavə stimul və məsuliyyət verir. Yeri gəlmişkən, İlham Məmmədovun özünün də gənclik illərində karate ilə peşəkar şəkildə məşğul olduğunu qeyd etmək istərdim. Bu da bir qədər əvvəl qeyd etdiyim faktı növbəti dəfə təsdiq edir. Yəni idmanla məşğul olanlar orduya, hərbiyə daha çox meyilli olurlar. Mən ixtisasca tarixçiyəm. Qarabağ həqiqətlərini yaxşı bilirəm və ürəkdən inanıram ki, nə vaxtsa haqq-ədalət bərpa olunacaq. Biz doğma torpaqlarımıza qayıdacağıq. Bunun üçün lazım olan yeganə amil uşaq, yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda böyüməsi, vətənin, ana torpağın təəssübünü çəkmələridir. Elə ona görə bütün tarix müəllimlərinə tapşırmışam ki, öz şagirdləri ilə Qarabağ tarixi ilə bağlı xüsusi söhbətlər aparsınlar”, - deyə təcrübəli pedaqoq fikirlərini bölüşdü.

261 saylı məktəb-liseyin direktoru Abuzər Əsədovla məktəblilərin idman həyatı haqqında danışdıq. Söhbətdən sonra bir daha məlum oldu ki, məktəblilərin həyatında idman danılmaz rola malikdir. Eyni zamanda orta məktəblərdə şagirdlərin idmanla məşğul olmaları üçün əlverişli şərait yaradılır. Bu isə birbaşa olaraq onların sağlamlıqları və vətənpərvərlik ruhunda böyümələri üçündür. Abuzər müəllimin də dediyi kimi, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyümələri zəruridir. Bu istiqamətdə idmanla məşğul olmaq ilkin şərtlərdəndir. İnanırıq ki, bu gün parta arxasında əyləşən, idman zallarında məşqçi-müəllimlərin tapşırıqlarını yerinə yetirən uşaq və yeniyetmələr sabahın tanınmış çempionları, bacarıqlı idman ustaları, mərd və cəsur hərbçiləri olacaqlar.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# “Əhalinin keyfiyyətli enerji təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər”

***İşıqsız gündəlik həyatımızı təsəvvür etmək olmaz. Bir vaxtlar enerji ilə bağlı vətəndaşların üzləşdiyi problemlər artıq geridə qalıb. Ölkəmizdə hər sahədə görülən əməli işlər öz bəhrəsini verir. Artıq enerji təminatında, elərin işıqlandırılması məsələlərində sürətli inkişaf hökm sürür. Bununla bağlı əsas işləri “Azərişıq” ASC öz üzərinə götürüb. “Azərişıq” ASC-nin əsas vəzifəsi ölkəmizi fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, regionun elektrik şəbəkəsini dünya standartlarına uyğun yenidən qurmaqdan ibarətdir. Qeyd olunduğu kimi, adı çəkilən qurum genişmiqyaslı yenidənqurma və təmir işlərini davam etdirir. İstismar müddəti bitmiş və sıradan çıxmış avadanlıqlar yenilənir. Yeni yarımstansiyalar tikilir, Komplekt Transformator Məntəqələri quraşdırılır, kabel xətləri çəkilir. Bir sözlə, həmin işlər inkişaf etməkdə olan Azərbaycanın qabaqcıl ölkələr sırasında olması və əhalinin rahatlığı üçün həyata keçirilir.***

Böyük bir inkişaf mərhələsi keçən “Azərişıq” ASC ildən-ilə mühüm layihələr həyata keçirir, vətəndaşların işıqla bağlı təminatını asanlaşdırır. Bu işdə “Azərişıq” ASC həm də “ASAN xidmət”in imkanlarından yararlanır. Artıq ölkə vətəndaşları qurumun fəaliyyətində şəffaflıq hiss edirlər. Bunu il ərzində, eləcə də, ötən ilin yekunlarında qeydə alınan hesabatlardan aydın görmək olur.

Əvvəlcədən qeyd edək ki, 2017-ci ildə “ASAN Kommunal” vasitəsilə Azərişıq “ASC”yə 140 min müraciət daxil olub.

Bu ötən illərlə müqayisədə rekord hədd sayılıb. Həmin müddətdə “ASAN Kommunal” vasitəsilə ASC-nin 10 xidmət üzrə (elektrik enerjisi ilə əhali və qeyri-əhali abonentlərə texniki şərtin verilməsi, əhali və qeyri-əhali abonentlər arasında bonentliyin bir addan başqa ada keçirilməsi, borcun araşdırılması, üzləşmə aktının əldə edilməsi, smartkartın yenilənməsi, geniş tarixçə əldə edilməsi, sayğacın yoxlanılması, smartkarta ödəniş edilməsi) əhalinin müraciətini qəbul edib. Qeyd edək ki, həmin müraciətlərin yalnız kiçik birhissəsi (sənədlərdə uyğunsuzluq və bu kimi səbəblər) icra olunmayıb. Bu 2017-ci ildə qurumun gördüyü işlər sırasında yer alıb. Növbəti ildə “Azərişıq” ASC öz işini daha mükəmməl yerinə yetirməyə başlayıb. Bunu göstərilən xidmətlərin keyfiyyətindən aydın görmək olur.

Xatırladaq ki, “Azərişıq” ASC-nin “ASAN xidmət” vasitəsilə abonentlərə göstərdiyi xidmətlər artıq bütün regionları əhatə edir.

Belə ki, yanvar ayında “Azərişıq” ASC-yə “ASAN xidmət” vasitəsilə 284 sahibkar müraciət edib. Adı çəkilən qurum bu müraciətlərə obektiv yanaşaraq, sakinləri elektrik şəbəkəsi ilə təmin edib.

Fevral ayında 330 sahibkarın müraciəti nəzərə alınıb. Sahibkarlarla yanaşı, 3252 vətəndaş da müraciət edib. Ümumilikdə isə fevral ayı ərzində “Azərişıq” ASC-nin “ASAN xidmət” mərkəzləri vasitəsilə göstərdiyi 10 xidmət 19 min müraciət olunub.



## Dəyişən rəqəmlər, artan müraciət və keyfiyyətli xidmət

Mart ayında “Azərişıq” ASC-nin “ASAN xidmət” və “ASAN Kommunal” vasitəsilə abonentlərə göstərdiyi xidmətlərin sırasına daha biri əlavə olub. İlin üçüncü ayından etibarən ölkədəki bütün “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində “Məcburi köçkün qrupuna aid abonentlərdən müraciətlərin qəbulu” adlı yeni xidmət fəaliyyətə start verilib. Mart ayında 232 sahibkar işıqla bağlı səhmdar cəmiyyətə müraciət edib. Fəaliyyət proqramında edilən təkmilləşmə və prosedurların azaldılması öz bəhrəsini verib. Bununla da sahibkarların işi xeyli asanlaşdırıb. “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərini əhatə etməsi, vahid pəncərə sistemi üzrə prosedurların 7-dən 3-ə salınması və şəbəkəyə qoşulma müddətinin 69 gündən 24 günə endirilməsi mart ayı ərzində müsbət mənada öz təsirini göstərib. Onu da qeyd edək ki, mart ayında bayram günlərinin sayının çoxluğuna baxmayaraq, 318 sahibkar elektrik şəbəkəsinə qoşulmaq üçün müraciət edib.

Aprel ayında sahibkarların obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün 400-ə yaxın müraciəti nəzərə alıb. Maraqlıdır ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, sahibkarların elektrik şəbəkəsinə qoşulması ilə bağlı müraciətlərinin sayı 4 dəfə artıb. Aprel ayındakı müraciətlər isə rekord sayılır.

Qeyd olunduğu kimi, “Azərişıq” ASC-nin fəaliyyəti qısa müddət ərzində daha da genişlənir.

May ayında “Azərişıq” ASC daha bir yeniliklə istifadəçilərini sevindirib. May ayının 3-dən etibarən ölkədəki bütün “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində “yük hesabatının hazırlanması” (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) və “istehlakçının balansında olan elektrik şəbəkələrinə, onların avadanlıqlarına texniki xidmətin göstərilməsi” adlı 2 yeni xidmət fəaliyyətə başlayıb. Bununla da qurumun vətəndaşlara göstəriyi xidmətin sayı bu gündən etibarən 13 olub.

Apreldə “Azərişıq” ASC-yə rekord sayda sahibkar müraciət edib

Aprel ayında sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün “Azərişıq” ASC-yə “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzləri vasitəsilə rekord sayda müraciət daxil olub. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, sahibkarların elektrik şəbəkəsinə qoşulması ilə bağlı müraciətlərinin sayı 4 dəfə artıb.

Mayda “Azərişıq” ASC-yə “ASAN xidmət” vasitəsilə 13 min müraciət edilib. Belə ki, 2018-ci il ərzində əlavə üç xidmətin yaradılaraq, xidmətlərin sayının 13-ə çatdırılması may ayı ərzində səhmdar cəmiyyətə daxil olan müraciətlərin sayında artıma səbəb olub.

İyun ayında “Azərişıq” ASC-nin “İstehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi” adlı daha bir xidməti fəaliyyətə başlayıb.

İldırımdan mühafizə troslarının ölçülməsi, transformatorlara baxış, yağ əlavəsi, gərginliyin nizamlanması, açıb-qoşma əməliyyatları, özəl müəssisələrin balansında olan yarımstansiyalarda daimi növbətçiliyin təşkili, açarların dəyişdirilməsi, ölçü cihazlarının quraşdırılması və ümumilikdə 500-dən çox əməliyyatlar həyata keçirilir. Bu xidmətin abonent üçün kifayət qədər üstünlükləri və xeyri var. Məsələn istehlakçının balansında olan yeraltı kabel və ya hava xəttində nasazlıq yaranır və bunun səbəbi bilinmir. Sözsüz ki, xəttin diaqnostikası, zədəli yerin ən qısa vaxt ərzində təyin edilməsi üçün bütün maddi texniki bazası mövcud olan “Azərişıq” ASC bundan sonra da istehlakçıların işinin asanlaşdırılması, təhlükəsizliyin təmin olunması və abonentlərin məmnunluğu üçün fəaliyyətini davam etdirəcək.




## “ASAN”laşan xidmət və müştəri məmnunluğu

“Azərişıq” ASC daha müştərilərə göstərdiyi xidmətləri asanlaşdırmaqda davam edir. Bu xidmət ıyul ayında da yeniliklərlə yadda qalıb. “Azərişıq” tərəfindən operativliyin və şəffaflığın təmin edilməsi məqsədilə enerji təchizatı sxemini (güc mənbəyinin dəyişməsi, bir fazalı təchizat sxemindən üç fazalı təchizat sxeminə və ya əksinə keçid) dəyişib. Abonentlərə yeni kodların verilməsi yalnız “ASAN xidmət” və ya “ASAN Kommunal” mərkəzlərində edilmiş sifarişlər əsasında həyata keçirilir. Bununla bağlı RETSİ (Regional Elektrik Təchizatı və Satış İdarəsi) və ETSİ-lərə (Elektrik Təchizatı və Satış İdarəsi) xüsusi tapşırıqlar verilib. Artıq qeyri-əhali abonentlərinin istənilən səbəbdən sayğacdəyişdirmə ilə bağlı olan müraciətləri də bu mərkəzlərdə edilmiş sifarişlər əsasında yerinə yetirilir. Bununla da elektrik qurğularının şəbəkəyə qoşulması zamanı texniki şərtlərin verilməsində yarana biləcək xoşagəlməz hallar təhlükəsiz şəkildə aradan qaldırılır. Nəticədə quruma olan inam və vətəndaş məmnunluğunu artır.

Məlumat üçün bildirək ki, 7 ayın yekunlarına əsasən “Azərişıq” ASC-nin “ASAN” brendi vasitəsilə göstərdiyi xidmətlər yüksək keyfiyyətlə qiymətləndirilib. Belə ki, bu müddət ərzində 11 min 500-dək evinə, bağına yaxud həyətinə işıq çəkdirmək istəyən vətəndaş, 1700-dək obyektini elektrik şəbəkəsinə qoşdurmaq istəyən sahibkar müraciət edib. Ümumilikdə isə 13 xidmət üzrə 101 min müraciətə baxılıb.

Avqust ayında “Azərişıq”a “ASAN xidmət”lə 12 mindən çox müraciət daxil olub. Statistikaya nəzər salsaq görərik ki, bu say avqust ayı ilə müqayisədə 2 dəfə artıb. “Azərişıq” ASC-nin göstərdiyi 13 xidmət arasında xüsusi əhəmiyyət daşıyan 150 kVt-dək sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün 200-dən çox sahibkar, evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün isə 4 mindən çox vətəndaş müraciət edib. İstehlakçıların balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi xidməti üçün 426, qeyri-əhali qrupuna aid istehlakçıların sayğac əvəzlənməsi üçün 1000-ə yaxın sahibkar bu imkanlardan yararlanıb. Sentyabr ayında edilən müraciətlər də say baxımından əvvəlki aylardan fərqlənir. Məlumdur ki, elektron xəritə vasitəsi ilə əhali və qeyri-əhali abonentlərin elektrik şəbəkəsinə qoşulması prosesini daha da asanlaşıb. Belə ki, “ASAN kommunal” və “ASAN xidmət” mərkəzinə müraciət daxil olan kimi əraziyə getmədən, yerindəcə elektron xəritədə dərhal evin, yaxud obyektin məkanı, ona ən yaxın məsafədəki güc mənbəyi müəyyənləşdirilir. Qoşulma haqqı ödənilməklə sənədləşdirmə işi daha tez formada həyata keçirilir. Ötən ay elektrik şəbəkəsinə qoşulması üçün 282 sahibkar evinə, bağına və həyətinə işıq çəkdirmək üçün isə 4084 vətəndaş müraciət edib. İstehlakçıların balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi xidməti üçün 331 sahibkar “ASAN xidmət” mərkəzlərinə üz tutub. Ümumilikdə isə 24 minə yaxın müraciət, sənədlərdə uyğunsuzluq və bu kimi hallar istisna olmaqla icra olunub.

## “Azərişıq” ASC-nin sosial şəbəkələrdə aktiv izləyici kütləsi var

Dövrümüz internet və sürətli informasiya üzərində qurulub. Artıq hər birimiz bu imkanlardan yararlanıb, bir sıra işlərimizi, ödəniş və müraciətlərimizi qısa zaman ərzində həyata keçirə bilərik. Bu baxımdan “Azərişıq” ASC-nin də fəaliyyətini diqqətdən qaçırmaq olmaz. Haqqında danışılan qurumun rəsmi internet səhifəsində “Elektrik şəbəkəsinə necə qoşulaq?” adlı xüsusi bölmə yaradılıb. Buraya daxil olan vətəndaşlar texniki şərtlərin verilməsinin yenilənmiş qaydaları ilə ətraflı şəkildə tanış ola bilərlər. Müqayisə üçün bildirək ki, əvvəllər elektrik şəbəkəsinə qoşulma ilə bağlı sahibkarların müraciəti paytaxtdakı “ASAN Kommunal”mərkəzlərində qəbul olunurdu. Lakin ötən ilin sonundan etibarən ölkənin bütün regionlarında fəaliyyət göstərən “ASAN xidmət”mərkəzlərində sahibkarların müraciətləri qəbul edilir. Sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması prosedurları 7-dən 3-ə salınıb, şəbəkəyə qoşulma müddəti isə 69 gündən 24 günə endirilib.

“Azərişıq” ASC sosial şəbəkələrdə aktiv izləyici kütləsinə malikdir.

“Facebook” və “instagram” vasitəsilə xidmətlər barədə məlumatlar daim yenilənir. Bununla da məmur-vətəndaş kontaktını minimuma endirilir, süründürməçilik kimi hallara yol verilmir. Eləcə də istehlakçılar hüquqlarını bilirlər.

Yekunda bir daha qeyd edə ki, “Azərişıq” ASC bu gün gələcəyin tələblərinə uyğun fəaliyyət göstərən bir qurumdur.

***Anar Əhmədov***

*“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

*Bölgə idmanı*

## Uşuçular Göyçayda bir araya gələcəklər

Oktyabrın 12-14-də Göyçay Olimpiya İdman Kompleksində uşu idman növü üzrə Azərbaycan birinciliyi keçiriləcək. Çinda və vin çun versiyaları üzrə keçiriləcək yarışda 200-ə yaxın idmançı birincilik uğrunda mübarizə aparacaq.

Çinda yarışları 3, vin çun yarışları isə 1 yaş kateqoriyası üzrə təşkil olunacaq.

Birincilik Avropa Uşu Federasiyasının qaydalarına əsasən keçiriləcək.

* * *

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX) alpinistləri Heydər Əliyev Fondunun təşəbbüsü, Bakı Media Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə yeni zirvə fəth ediblər. Qusar rayonu ərazisində, Böyük Qafqaz sıra dağlarında dəniz səviyyəsindən 3740 metr hündürlükdə yerləşən zirvəyə “Cümhuriyyətin 100 illik zirvəsi” adı verilib. Zirvədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş məlumat lövhəsi bərkidilib. Ümumi çəkisi 95 kiloqram, hündürlüyü isə 1 metr 40 santimetr olan abidə zirvəyə alpinistlərin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçilərinin köməyi ilə daşınıb. Abidənin müəllifi Əməkdar rəssam və heykəltəraş Azad Əliyevdir. Layihənin əlaqələndiricisi isə Səlhab Məmmədovdur.

## Ölkə çempionatına start verilib

Oktyabrın 6-da “ABU Arena”da həndbol üzrə 26-cı respublika çempionatının rəsmi açılışı olub. Mərasimdə çıxış edən Azərbaycan Həndbol Federasiyasının (AHF) vitse-prezidenti Orxan Abbasov AHF-nin prezidenti Saleh Məmmədovun salamlarını yarış iştirakçılarına çatdırıb. Ölkədə idmana göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Orxan Abbasov əldə olunan uğurları bu qayğının məntiqi nəticəsi kimi qiymətləndirib. Vitse-prezident qadınlardan ibarət milli komandamızın gələn il Çempionlar Liqasında yarışacağını, kişilərdən ibarət “Bakı” klubunun isə oktyabrın 13-də Bosniyada keçiriləcək “Çağırış kuboku”na qatılacağını diqqətə çatdırıb. Bunu son vaxtlar həndbolun inkişafı istiqamətində aparılan səmərəli fəaliyyətin təzahürü kimi dəyərləndirən federasiya rəsmisi yaxın gələcəkdə daha yüksək nailiyyətlərə imza atılacağına ümid bəslədiyini deyib.



Orxan Abbasov yeni mövsümün gərgin və maraqlı mübarizə şəraitində keçəcəyinə inandığını vurğulayaraq, Gürcüstanın “Olimpiya” komandasının çempionata xüsusi rəng qatacağını bildirib.

Yeni mövsümdə çempionatda 6-sı qadın, 4-ü kişi olmaqla 10 komanda qüvvəsini sınayır. 26-cı ölkə çempionatına əvvəlcə qadınların yarışı ilə start verilib. Çempionatın açılış matçında “Gənclər Birliyi” və “Azəryol” komandaları qarşılaşıblar. “Azəryol”un üstünlüyü ilə keçən oyun 18:44 hesab ilə nəticələnib.

Sonra meydançaya çıxan “İdman Akademiyası” və “Qarabağ” kollektivlərinin görüşündə də nominal qonaqlar qələbə qazanıblar. Daha inamlı oyun göstərən “Qarabağ” qarşılaşmanı öz xeyrinə başa vurub - 33:26.

Günün son qarşılaşmasında isə Azərbaycan çempionu “Azərsu” Gürcüstanın “Olimpiya” komandasına 46:17 hesabı ilə qalib gəlib.

Qadın həndbolçuların 20 turdan ibarət Azərbaycan çempionatına aprelin sonunda yekun vurulacaq.

Qeyd edək ki, kişi həndbolçulardan ibarət “Məhsul”, “Təhsil”, “U-16” və sonuncu çempion “Bakı” komandası növbəti respublika çempionatında mübarizəyə oktyabrın 21-də başlayacaq.

## Tələbələr arasında respublika birinciliyi

Oktyabrın 22-də “Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının (TİC RŞ) təşkilatçılığı ilə orta ixtisas təhsil müəssisələrinin komandaları arasında respublika birinciliyinə start veriləcək.

Təqvim planına dörd idman növü - şahmat, dama, stolüstü tennis və voleybol daxildir. Şahmat yarışları ilə start götürəcək respublika birinciliyi noyabrın 7-nə qədər davam edəcək. Şahmat, dama, stolüstü tennis yarışları Bakı 2 saylı Tibb, voleybol turniri isə Azərbaycan Dövlət Pedaqoji kolleclərinin idman zallarında keçiriləcək.

Tələbələr arasında respublika birinciliyinin təşkilində əsas məqsəd idmanın kütləviliyini təmin etmək, gənclərin sağlamlığını möhkəmləndirmək və onların asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Qeyd edək ki, orta ixtisas təhsil müəssisələrinin komandaları arasında respublika birinciliyi iki ildən bir keçirilir.

# İdmançı sənət, sənətçi idman haqqında

*"Olimpiya dünyası" qəzetinin "İdmançı sənət, sənətçi idman haqqında" rubrikasının budəfəki qonaqları Azərbaycanın tanınmış aktyoru, rejissor, xalq artisti Yasin Qarayev və sərbəst güləş üzrə 3 qat dünya, 2 qat Avropa çempionu Hacı Əliyevdir.*

## Yasin Qarayev: "Xoşbəxtlik sağlam ruhlu insanları sevir"



-

***Xalq artisti Yasin Qarayev özünü necə hiss edir?***

- Azərbaycan xalqı özünü necə hiss edirsə, mən də o cür hiss edirəm.

***- Ali məktəbi bitirdikdən sonra Gənc Tamaşaçılar Teatrında əmək fəaliyyətinə başlamısınız və o vaxtdan burada çalışırsınız. Bu sədaqətdir, yoxsa tale?***

- 1946-cı il mayın ayının 22-də Şəmkir rayonunun Dəllər-Cırdaxan kəndində anadan olmuşam. Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya fakültəsini bitirdikdən sonra 1974-cü ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yaradıcılıq fəaliyyətinə başlamışam. Gənc Tamaşaçılar Teatrı (GTT) mənim ikinci evimdir. Mən teatrımızın ilk təməl daşını qoyan (1927) Məmmədağa Dadaşov və onun həyat yoldaşı Münəvvər xanım Kələntərli, Susanna Məcidova, Hüseynağa Sadıqov, Süleyman Ələsgərov, eləcə də, Yusif Vəliyev kimi unudulmaz sənətkarlarla çiyin-çiyinə işləmişəm. Hüseynağa Sadıqovdan dərs almışam və onun sözləri həmişə qulaqlarımda cingildəyir: "Yasin, sənin boy-buxunun, göstəricilərin, səs imkanların Gənc Tamaşaçılar Teatrının tələblərinə cavab verir. Heç vaxt bu teatrı başqasına dəyişmə". Yaxşı ki, o böyük insanın, əziz müəlllimimin dediklərinə əməl elədim və taleyimi yalnız bu teatra bağladım.

### "Qulu obrazı ilə məhşurlaşdım"

***- 100-ə yaxın teatr və televiziya tamaşasında rol almısınız. Ən sevdiyiniz və sevmədiyiniz rolunuz hansıdır?***

- Azərbaycan Dövlət Televiziyasında nümayiş etdirilən 25-30 teletamaşada rol almışam. Hansı ki, həmin tamaşalar televiziyanın qızıl fondunda saxlanıır. Məni məhşurlaşdıran, başqa sözlə, karyerama yaşıl işıq yandıran rolum S.S.Axundovun "Tamahkar" tamaşasındakı Qulu obrazı olub. Bu tamaşada rəhmətlik Hüseynağa Sadıqovun nökərini oynayırdım. Əsər uşaqlar və gənclər tərəfindən çox bəyənildi və sevildi. (gülür) Məni ictimaiyyət arasında görəndə baş rolun adından "Qulu, ay Qulu, başın batsın ay Qulu", - deyərək, gülürdülər. Bax, beləcə, Qulu obrazı ilə məşhurlaşdım.

Televiziyada isə yaddaqalan rollarımdan ən birincisi Əfqan Əsgərovun "Qız atası" tamaşasındakı Nəroğlan obrazıdır. Bu rol da mənə tamaşaçı rəğbəti qazandırıb və bir aktyor kimi tanınmağımda böyük rol oynayıb. Sonra İsi Məlikzadənin teatr tamaşalarında maraqlı rollarım olub. Həsən Əblucun quruluş verdiyi "Sağlıq olsun" tamaşasında baş rolun ifaçıları olan Süleyman Ələsgərov və Firəngiz Şərifovanın oğlunu - Əzizi oynayırdım. Bu əsər də tamaşaçılar tərəfindən çox sevildi. Həmin bu adlarını çəkdiyim obrazlar 45 illik aktyorluq sənətimdə ən sevdiyim rollarımdır.





Sevmədiyim rolum isə, kalmıkiyalı rejissor Boris Manjıyevin "Qohumlar" əsərindəki rolumdur. Bu obraz ağsaqqal bir kişi idi və demək olar ki, bütün günü yatır və danışmırdı. Bir sözlə, bu rol məni qane etmədi.

### "Mənim üçün yazılıb"

***- Eşitdiyimizə görə, İsi Məlikzadə "Gəl, qohum olaq" komediyasını sizin üçün yazıb.***

- İsi Məlikzadənin 1977-ci ildə qələmə aldığı bu pyesdə Qarakişi obrazı məhz mənim üçün nəzərdə tutulub. Qeyri-obyektiv səbəblərdən həmin pyes o vaxtlar Bakıda tamaşaya hazırlanmadı. Bir müddət sonra aktyor Rafiq Hüseynovla bu tamaşanı səhnəyə hazırladıq. Tamaşada Qarakişi rolunu mən, dostumu isə Rafiq Hüseynov oynayırdı. "Gəl, qohum olaq" əsəri düz 18 il teatrın repertaurunda saxlanıldı və tamaşaçılar tərəfindən sevildi. Yəni Qarakişi obrazı da mənim üçün yaddaqalan obrazlardandır. 2001-ci ildə Azərbaycan Dövlət Televiziyasında Əməkdar incəsənət xadimi Məhərrəm Bədirzadənin quruluşunda həmin tamaşanın əsasında çəkilən film də uğurlu alındı.





***- Gənclik deyəndə yadınıza nə düşür?***

- Gənclik ömrün bahar çağıdır. Gənclik, həm də təhlükəli bir dövrdür. İnsanın gələcəkdə xoşbəxt və bədbəxt olması onun gənclikdə etdiyi əməlləri ilə müəyyənləşir. Gənclərimizə tövsiyə edirəm ki, gələcəyə, başqa sözlə desək, ahıllığa indidən hazırlıq görsünlər.

### "Futbolu çox sevirəm"

***- İdmana münasibətiniz?***

- İdmana münasibətim həmişə yaxşı olub, gənclikdə də, indi də. Gənclik illərində evdə sərbəst şəkildə gimnastika və akrobatika ilə məşğul olurdum.Özüm oynamasam da, futbolu çox sevirəm. "Futbol+" qəzetinin daimi oxucusuyam.

***- İdmançılardan kimləri tanıyırsınız?***

-İdmançılardan demək olar ki, çoxunu tanıyıram. Olimpiya, dünya və Avropa çempionları bizim fəxrimizdirlər. Futbolçu dostlarım çox olub. "Neftçi"nin oyunçusu Mübariz Zeynalovla yaxın olmuşuq. Rəhmətlik gəncəli idi və 11 nömrədə meydana çıxırdı. "Neftçi"nin daha bir oyunçusu Yaşar Babayevi də yaxşı tanıyırdım.

***- Hacı Əliyevi necə?***

- Hacı Əliyevlə şəxsi tanışlığım olmasa da, onun Azərbaycanın tanınmış güləşçilərindən biri olduğundan xəbərim var. Bildiyimə görə, Hacının atası da, qardaşı da idmançıdırlar. Hacının qardaşı Yaşar Əliyev dünya və Avropa çempionatının bürünc mükafatçısıdır. Hacı Əliyev isə sayılıb-seçilən, titullu idmançılarımızdandır, dəfələrlə dünya və Avropa çempionudur, Rio-2016 Olimpiadasının bürünc mükafatçısıdır. Olimpiadada onun çıxışını həyəcanla izləyirdim. İnşallah, Tokio-2020-də çempion olar. Eşitdiyimə görə, incəsənəti, musiqini çox sevir və hətta gözəl səsi var.

***- Özünüz idmanla məşğul olursunuzmu?***

- Yaşadığım evin həyətində özüm yaşda bina sakinləri ilə domino oynayırıq. Evə qonaq gələndə isə nərdi bilən adam olsa, nərdtaxta arxasına keçirik (gülür). Bundan o yanası yoxdur.

***- Xəyanətə münasibətiniz?***

- Mən duzu yeyib duzqabını sındıran, ona bel bağlayanın belini qıran, dostluğa xəyanət edən satqın insanları iylənmiş ət parçasına bənzədirəm. Ümumiyyətlə, əxlaqsız və tərbiyəsiz insanları görəndə münasibətimdə onlara qarşı "oruc" tuturam. Həmin adam əzizim də olsa belə, onunla əlaqəmi "blok"laşdırıram. Mənim üçün nə qədər çətin olsa da, reallıqla barışmağa, qəbul etməyə çalışıram. Bir də deyirlər ki, bədəməl insan heç vaxt böyük adam ola bilməz. Amma mən neçə-neçə bədəməl sahibi amma istedadlı adamlar görmüşəm...

***- Xoşbəxtlik nədir?***

- Xoşbəxtliyin konkret izahı yoxdur. Bircə onu bilirəm ki, xoşbəxtlik sağlam ruhlu insanları sevir.

Dünyada mövcud olan xəstəliklərin sayı və səbəbləri çox olsa da, onun yalnız bircə dənə çarəsi var -sağlamlıq. Əgər insan düşünmək, ağıllı fikir söyləmək və həyatda uğur qazanmaq istəyirsə, mütləq sağlam həyat tərzi sürməlidir. Yəni insan ruhən sağlam olmalıdır. Hər açılan səhər, başlanan gün yeni həyatdır. Hər yaşadığımız gün bizi sona aparır. Onun üçün də insan hər günün, saatın, dəqiqənin qədrini bilməlidir. Xoşbəxt o insanlardırlar ki, həyatla və həyatda mübarizə aparmağı bacarırlar. Mübarizədə qalib gələn insan yaşamağın sevincini yaşayır. Bax, həyat budur.

***- Keçmiş və gələcək deyəndə nə düşünürsünüz?***

- Müdriklər deyirlər ki, keçmiş ona görə gözəldir ki, o artıq yoxdur. Gələcək isə ona görə xəyaldır ki, hələ gəlməyib.

***- GTT-nın 90 illik yubileyinə necə hazırlaşırsınız?***

- Teatrımızın 90 illik yubiley gecəsinin hazırlığı xalq artisti, rejissor Vaqif Əsədova tapşırılıb. Bildiyimə görə, tamaşaçılar dekabrın əvvəlləri təntənəli yubiley gecəsinin şahidi olacaqlar.

***- Yasin müəllim, müsahibə üçün təşəkkür edir, sizə sağlam ömür arzulayırıq!***

- Çox sağ olun.

## Hacı Əliyev: "İnsan həyatı musiqiyə bənzəyir"



***- Hacı, güclü idmançı olduğun qədər də, sadə və səmimi insansan. Bu, nədən irəli gəlir?***

- Düşünürəm ki, insanın cəmiyyətdə özünə yer tapmasında, nüfuz qazanmasında tərbiyə, təhsil, iradə böyük rol oynayır. Əvvəllər idmançı yoldaşlarımızdan biri çempion olanda fikirləşirdik ki, görəsən, o,yenə əvvəlki kimi qalacaq, ya dəyişəcək? Elə olurdu ki, dünya və Avropa çempionu olan güləşçimiz özünü birtəhər aparanda həmin dəqiqə irad tuturdular: "Nə oldu, çempion oldun, dəyişdin?! Mən özümə söz vermişdim ki, nə vaxtsa, məşhur olsam, "ulduz" xəstəliyinə tutulmayacağam. Çalışmışam ki, dünya və Avropa çempionu olandan sonra da yoldaşlarımla, ətrafımdakı insanlarla əvvəlki münasibətimi saxlayım. Evdə, ailədə mən adi insanam - atamın, anamın oğlu, qızımın atası, xanımımın həyat yoldaşı, vəssalam. Məni tanıyanlar bilirlər ki, necə insanam. Tanrıya ibadət edən bir insan kimi düşünürəm ki, vəzifə, var-dövlət, şan-şöhrət gəldi-gedərdir. Günlərin birində bunların hamısını itirə bilərsən, amma insanlıq bizimlə qəbr evinə kimi gedir. Yaxşı insanlar sağlığında rəhmət qazanırlar.

### "Əsas odur ki, insan etibarını itirməsin"

***- Qazandığın şan-şöhrəti ititrmək qorxusu varmı içində?***

- Mən idmançıyam, xalqımı, ölkəmi xarici ölkələrdə təmsil edirəm. Günlərimiz, aylarımız uzunmüddətli təlim-məşq toplanışlarında, gərgin məşqlərdə keçir. Yarışlar zamanı ailəmizdən uzun müddət ayrı qalırıq.










İllərlə qazandığım nüfuzu, titulları, bir sözlə, Azərbaycan güləşində əldə etdiklərimi asanlıqla itirmək istəmirəm. Çünki bu adı, titulu qazanmaq üçün neçə-neçə gərgin illər sərf olunub.

Dərindən düşünəndə, insan malik olduqlarını hər an itirə bilər. Bu, Tanrının işidir. Vaxtilə 18 il kirayədə yaşamışıq, minbir əziyyət görmüşük. Yəni çətinlik məni qorxutmur. Əsas odur ki, insan etibarını, insanlığını, və sağlamlığını itirməsin.

***- Səni Tanrıya ibadət edən idmançılardan biri kimi tanıyırıq...***

- Gündə 5 dəfə ibadət edən insan Tanrı qarşısında hesabat verir, günahlarının bağışlanmasını diləyir. Həmi an insan mənən sakitləşir, saflaşır. Allah böyükdür, rəhmdildir, mərhəmətlidir. O, bütün bəndələrinin günahlarını bağışlayır. Bu dünya əbədi deyildir, hər birimiz köçüb gedəcəyik. Hər bir müsəlman da ölən günə qədər düzgün yaşamalı, yaxşılıq etməyi bacarmalıdır. Allah insana düşünmək üçün beyin, görmək üçün göz, hərəkət etmək üçün əl-ayaq verib. Çox vaxt naşükürlük edirik və bunların əhəmiyyətini başa düşmürük.

### "Sistem qoşmalı oldular"

***- Avropa çempionatının finalı sənin üçün çox ağır keçdi. Məğlub ola biləcəyini düşünürdünmü?***

- Əvvəllər yarışa 61 kq çəki dərəcəsində çıxırdım. İlk dəfə Avropa çempionatında Olimpiya çəki dərəcəsində -65 kq-də yarışırdım. Finaldakı rəqibim həmişə bu çəkidə güləşdiyindən uyğunlaşmışdı. Yuxarı çəkiyə uyğunlaşmaq gərgin fiziki güc tələb edir. Qitə yarışından əvvəl həmin rəqibim mənə Hindistanda qalib gəlmişdi. Avropa çempionatında görüşün bitməyinə az qalmış rəqibimin yorulduğunu hiss etdim və fürsəti dəyərləndirdim. Çətin görüş oldu.

***- Rəqibin mükafatlandırma mərasimində niyə iştirak etmədi?***

- (Gülür) Məğlub olmağı özünə sığışdırmırdı. Onu elə vəziyətə salmışdım ki, görüşdən sonra sistem qoşmalı oldular. Sevinirəm ki, 2 qat avropa çempionu adını qazana bildim.

***- Müəyyən hadisələr baş verəndə özünü necə aparırsan və ya reaksiyan necə olur?***

- Hər şeyi ayıq başla anlamağa və səbirli olmağa çalışıram.

***- Ədalətli olmaq çoxmu çətindir?***

- Bu, insanın şəxsi keyfiyyətlərindən, aldığı tərbiyədən, milli-mənəvi dəyərlərə hörmətindən asılıdır. Düşünürəm ki, hər zaman, hər yerdə ədalət prinsipləri qorunmalıdır. Vicdan deyilən hiss varsa, ədalət də olacaq.

***- Yalana münasibətin?***

- Yalan insanı nüfuzdan salır. Bir dəfə yalan danışdınsa, bu, davam edəcək. Yalançı, istifadəçi adamları sevmirəm və ətrafıma da yaxın buraxmıram.

### "İşini sev ki, işin də sənə qiymət versin"

***- Səncə, uğurun səbəbi nədədir?***

- Hər kəs işinə vicdanla, peşəkarcasına yanaşanda nəticə də ürəkaçan olur. İşə, peşəyə barmaqarası baxmaq olmaz. İşini sev ki, işin də sənə qiymət versin. İnsan çalışdığı sahədə uğur qazandıqdan sonra da yerində saymamalıdır. O, daim çalışmalı, daha yüksək zirvələrə can atmalıdır. Məsələn, Hacı Əliyev 2 dəfə dünya çempionu olubsa, 3-cü dəfə niyə olmasın? Dayanmaq lazım gələndə, onsuz da bu, baş verəcək. Bizə verilən ömür payını şərəfli, dolğun yaşamaq öz əlimizdədir. Həkim, jurnalist 50-60 yaşında da əvvəlki kimi səmərəli fəaliyyət göstərə bilər amma idmanda belə deyil. İdman yeganə sahədir ki, yaş həddi əsasdır. 30-35 yaşda sən əvvəlki gücü, qüvvəni hiss eləmirsən. İstədin-istəmədin, yorğunluq hiss edirsən. Bax, onda dincəlmək olar. Hələ ki, vaxt var, irəliləmək lazımdır. İdmançılar tanıyıram ki, hər şeyi idmana qurban verdikləri halda, əvəzində heç nə qazana bilməyiblər. Çünki bu sahədə uğur qazanmaq o qədər də asan deyil.

***- Karyeranı başa vurduqdan sonra nə etməyi düşünürsən?***

- Hazırda sərhəd qoşunlarında zabit rütbəsindəyəm. Bu rütbəni 2 qat Avropa çempionu olduqdan sonra qazanmışam. İdmandan uzaq durmaq ağlımın ucundan belə keçmir. Yəqin ki, karyerama məşqçi kimi davam edəcəyəm.

***- Bildiyimizə görə, sənət adamları içində dost-tanışlarınız kifayət qədərdir?***

- Müğənnilərdən Abbas Bağırov, İlqar Muradov, Mirələm Mirələmovla yaxın münasibətlərimiz var. Müğənni Abbas Bağırovla çox yaxın dostam. Mirələmlə dostluğumuz IV İslam Həmrəyliyi Oyunlarına təsadüf edir. Mirələm Mirələmovun gözəl səsi var, yüksək səhnə mədəniyyətinə malikdir.

***- Yasin Qarayevi tanıyırsanmı?***

- Onu tanımayan insan varmı? Xalq artisti Yasin Qarayevi teletamaşalardakı rollarından tanıyıram. Onun kimi aktyorlar əvəzedilməzdir.

### "Musiqini çox sevirəm"

***- Hacı, sənin, həm də gözəl səsin var...***

- (Utanır). İnsan həyatı musiqiyə bənzəyir. Bəzən asta, həzin, bəzən ritmik, şən notlara köklənirik. Musiqini sevməyən insan tanımıram. Uşaqlıqdan musiqini çox sevirəm. Dost-tanışlarım "Yaralıyam", "Ala göz", "Sarı gəlin", "Küçələrə su səpmişəm" "Sənin xatirinə" kimi mahnıları ifamda çox bəyənirlər.

***- Qarşıda səni hansı yarışlar gözləyir?***

- Oktyabr ayında Macarıstanda keçiriləcəck dünya çempionatında iştirak edəcəyik. Tokio-2020 Olimpiadasına lisenziya verəcək yarışlar isə hələ qabaqdadır.

***- Aişə atasını, ya atası Aişəni çox sevir?***

- Qızımın 3 yaşı var. Onu çox sevirəm, yarışlara gedəndə darıxıram, elə o da. Axı qızlar atalarını çox istəyirlər. Hamı kimi mən də övladım üçün yaşayıram.

***Səhifəni hazırladı: Səadət Hakıyeva***

Müsahibə

# İdman tarixini araşdıran görkəmli pedaqoq

***Alim həyatı çox gərgin və çətin keçir. İllərlə bir sahədə çalışıb, yeni yaradıcılıq məhsulları bəxş edən insanların həyatı bir örnəkdir. Onlar keçmişi araşdırıb bu günlə uzlaşdırıb, gələcək nəsillər üçün yeni əsərlər yaradırlar. Gənclər isə bunlardan faydalanır və bəhrələnir. Yaradıcılıq sahəsində yeni araşdırmaları ilə böyük bir tarixi bir araya gətirən insanlardan biri də Dilqəm Quliyevdir. Öz həyatını elmə, idmana və həmin sahədəki araşdırmalara həsr edən bu mütəxəssisin gördüyü işlər təqdirəlayiqdir. Çəkdiyi zəhmətə görə “Tərəqqi” medalına, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi adına layiq görülən Dilqəm müəllim bu yaxınlarda idman tarixi sahəsindəki araşdırmalarına görə yeni bir elmi ad alıb. Ona Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 4 iyul 2018-ci il tarixli qərarı ilə pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi verilib. Elə bu məqsədlə Dilqəm Quliyevlə görüşüb, onun elm sahəsindəki fəaliyyəti barəsində söhbət etdik.***

***- Dilqəm müəllim, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında böyük fəalliyyəti ilə seçilən peadaqoqlardan birisiniz. Bu barədə qısa məlumat verərdiniz.***



- 1978-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) pedaqoji fakültəsini fərqlənmə diplomu ilə bitirərək, təyinatla həmin institutun “Güləşmə və onun metodikası” kafedrasında baş laborant vəzifəsində çalışmağa başladım. 1989-cu ildə müəllim, 1990-cı ildə baş müəllim, 1991-2001-ci illərdə akademiyanın tərbiyə işləri üzrə prorektoru, 2001-2016-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman işləri və xarici əlaqələr üzrə prorektoru vəzifəsində çalışmışam. 2016-cı il fevralın 1-dən AzDBTİA-da yeni yaradılmış “Şərq güləşi və əlbəyaxa döyüş növlərin nəzəriyyəsi və metodikası” kafedrasına (müsabiqə keçirilənədək) kafedra müdiri vəzifəsinə təyin edilmişəm. 2016-cı il iyunun 22-dən rektorun idman işləri üzrə müşaviri vəzifəsinə təyin edilmişəm. Bu Akademiyanın idman həyatında yaddaqalan hadisələrin bir hissəsidir.

***- Kitablarınız və dövrü mətbuatda çıxış etdiyiniz yazılarınız minlərlə oxucu kütləsi qazanıb. Buna ən qiymətli vaxtlarınızı sərf etmisiniz. Buna görə heyfislənmirsiniz ki?***



- Doğrusu, elmi-tədqiqat işlərinə başlamaq mənim həyatımda bir sirr olaraq qalır. 1984-cü ildə Azərbaycan Respublikası Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (indiki Azərbaycan Respublikası Təhsil İnstitutu) dissertantı oldum. Ümumiyyətlə mənim elmi həyatım enişli-yoxuşlu olub. Lakin yazıb-yaratmaq, idman tarixini araşdırmaq mənim üçün həmişə maraqlı olub. İndiyədək dövrü nəşriyyatda 400-ə yaxın əsərim və 300-ə yaxın elmi-pedaqoji və publisistik qəzet məqalələrim çap olunub. Onlardan 6-sı dərslik, 22-si kitab, 19-u monoqrafiya, 14-ü dərs, 2-i proqram, 31-i metodiki, 17-si metodiki göstəriş, 13-ü isə tədris vəsaiti olub. Bundan başqa 3-ü metodik tövsiyə, 137-si jurnal məqalə (31-i xarici ölkədə), 135 tezis (26-sı xarici ölkədə), orta ümumtəhsil məktəbinin dərsliklərində isə 5 məqalənin müəllifiyəm. Elmi məqalələrim Rusiya, Almaniya, Yunanıstan, Bolqarıstan, Polşa, Türkiyə, İran, Qazaxıstan, Özbəkistan, Ukrayna, Estoniya və digər ölkələrin mətbu orqanlarında çap olunub.

***- Bu yaxınlarda yeni nüfuzlu elmi ada layiq görülmüsünüz. İstərdik, bu barədə fikirlərinizi bildirəsiniz.***

- Əvvəlcə, onu qeyd edim ki, 1994-cü il iyulun 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışam.

2008-ci il iyulun 16-da Azərbaycan Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin tarix üzrə problemlər şurasının qərarına əsasən “Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında Heydər Əliyev mərhələsi (1970-2003-cü illər)”adlı doktorluq dissertasiyasının mövzusu təsdiq olundu.

2017-ci il iyunun 12-də Azərbaycan Dövlət Pedoqoji Universitetinin nəzdində elmlər doktoru elmi dərəcəsi almaq üçün seminardan keçdim. Elə həmin ilin noyabrın 7-də isə doktorluq dissertasiyasını müdafiə etdim. Bu il iyul ayının 4-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən pedaqogika üzrə elmlər doktoru diplomu təsdiq olundu.

İyulun 13-də isə həmin diplom mənə təqdim olundu.

***- Elmi araşdırmalarınızın dərc olunduğu kitablarda böyük oxucu kütləsi qazanıb.***

- Yazdığım əsər və elmi-pedaqoji məqalələrdən Bədən Tərbiyəsi və İdman Akademiyasında, liseylərdə, ali təhsil ocaqlarında, habelə müəllimlərin ixtisasartırma kurslarında pedaqoji fikir tarixi, bədən tərbiyəsi və idman tarixi fənlərindən mühazirə kursu kimi istifadə edilir. Müəllifi olduğum “Azərbaycanın ustad pəhləvanları”, “İdman və Olimpiya Oyunlarında İlham Əliyevin rolu”, “Azərbaycan idmanının dünəni və bu günü”, “Helsinkidən başlayan yol”, “Azərbaycanın Avropa, dünya çempionları və mükafatçıları” və başqa kitablar Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən Dövlət Qulluğuna qəbul testlərində istifadə olunan ədəbiyyatların siyahısına salınıb. 2004-cü ildən Azərbaycan Milli Ensiklopediyasının bədən tərbiyəsi və idman bölməsi üzrə məqalələrin müəllifiyəm. Bundan başqa “Şair qəlbli qəhrəman”, “Tələsmə, könlüm” adlı məqalələrim rus dilində olan məktəblərin 9-cu sinif dərsliklərində və ibtidai siniflərdə folklor materiallarının öyrədilməsi metodikasında çap olunub.

***- Gələcəkdə daha hansı mövzulara müraciət etməyi planlaşdırırsınız?***

- Elə mövzular var ki, onlara öz araşdırmalarımda toxunsam da açıqlamasını verməmişəm. Həmişə əsasən 1 istiqamət üzrə araşdırmalar aparmışam. Lakin istəyirəm ki, bu dəfə bədən tərbiyəsi və idmanın nəzəriyəsi, bədən tərbiyəsi və idmanın bəzi problemləri mövzularına ətraflı toxunum.

Onu da qeyd edim ki, hazırda yeni bir kitab üzərində çalışıram. Kitabın adı “Halallıqdır”. Həmin kitabda həyatım və üzləşdiyim çətinliklər haqqında bütün məsələlərə daha aydın şəkildə açıqlama gətirəcəyəm. Hesab edirəm ki, həmin kitab çoxsaylı oxucuların rəğbətini qazanacaq.

***- 27 ildir ki, bu sahəyə gücünüzü sərf etmisiniz. İdman tarixini araşdırmaq çətin deyil ki?***

- Təbii ki, çətindir. Tarix elə bir şeydir ki, hər gün yenilənir. Ümumiyyətlə bir işi görmək üçün onun tarixini bilmək lazımdır. Tarixi bilmədən heç bir məsələnin kökünü tapmaq mümkün olmaz.

***- Dilqəm müəllim, arzular sonsuzdur. Bəs Sizin ən böyük arzunuz nədir?***

- Bəli, bəşər tarixində ümumxalqın bir arzusu olub - azadlıq arzusu. Bir xalq üçün azadlıqdan şirin, azadlıqdan müqəddəs arzu olmayıb. Xüsusilə də, bütov bir xalqın, millətin azadlıq arzusu. Elə bir arzu ki, bu ülvi arzu əsrlərin həsrətindən doğmuş olsun.

Arzu edirəm ki, işğal olunmuş torpaqlarımız düşmən tapdağından azad edilsin. O ki qaldı ki, mənim elm sahəsində arzuma, deyə bilərəm ki, artıq bu arzuma çatmışam. Qeyd etdiyim kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 4 iyul 2018-ci il tarixli qərarı ilə pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi adını almışam. Mənə göstərilən etimadı bundan sonra da təhsil sahəsində fəaliyyətimlə doğrultmağa çalışacağam.

***Azər Əlizadə***

# “Neftçi” liderliyini davam etdirir

***Ötən həftə Topaz Premyer Liqasında 7-ci turun oyunları keçirilib.***

***Turun ilk oyunu “Dalğa Arena”da təşkil olunub. Ötən mövsümün gümüş mükafatçısı “Qəbələ” klubu “Zirə”nin qonağı olub. Qarşılıqlı hücumlar şəraitində keçən ilk hissədə hesab açılmayıb.***

Fasilədən sonra oyunun favoriti sayılan “Qəbələ” klubu rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaratsa da, bunu qola çevirə bilməyib. Oyunun taleyini matçın 85-ci dəqiqəsində “Zirə” klubunun futbolçusu Miloş Rodivojeviçin vurduğu qol həll edib. Beləliklə, görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatıb.



Bu komandalar indiyədək çempionatda 12 dəfə qarşılaşıblar. Oyunlardan üçündə “Zirə”, dördündə isə “Qəbələ” qalib gəlib, beş oyun isə heç-heçə yekunlaşıb.

Qeyd edək ki, “Qəbələ” klubu Topaz Premyer Liqasında beş oyundur qalib gələ bilmir.

Turun digər görüşü “Bayıl Arena”da keçirilib. “Səbail” klubu “Sumqayıt” komandasını qəbul edib. Görüş 2:0 hesabı ilə paytaxt təmsilçisinin xeyrinə başa çatıb. Meydan sahiblərinin heyətində Kamal Qurbanov və Fəhmin Muradbəyli fərqləniblər.

Topaz Premyer Liqasında turun son oyununda turnir cədvəlinin lideri “Neftçi” debütant “Sabah” komandasını qəbul edib. “Bakcell Arena”da keçirilən görüş “Neftçi”nin qələbəsi ilə başa çatıb. Flaqmanın heyətində Emil Mahmudov və Qoran Paratskiy fərqləniblər. Qarşılaşmanın 76-ci dəqiqəsində “Neftçi” klubunun futbolçusu Slavko Braliç qayda pozuntusuna görə ikinci sarı vərəqə ilə cəzalandırılaraq meydançadan kənarlaşdırılıb.

Bu qələbədən sonra “Neftçi” klubu xallarının sayını 19-a çatdıraraq liderliyini qoruyub. “Sabah” isə 10 xalla dördüncü yerdədir. Bir oyun az keçirən “Qarabağ” komandası 16 xalla ikinci pilləni tutur.

Məlumat üçün qeyd edək ki, bu turda keçirilməli olan “Keşlə” - “Qarabağ” matçı Ağdam komandasının UEFA Avropa Liqasında oyunu ilə əlaqədar olaraq oktyabrın 31-nə təxirə salınıb.



# “Araz” UEFA Çempionlar Liqasında mübarizəni dayandırdı

Futzal üzrə UEFA Çempionlar Liqasında Azərbaycanı təmsil edən “Araz” klubu oktyabrın 6-da turnirin əsas mərhələsində qrupdakı son oyununu keçirib. Azərbaycan çempionu “Araz” klubu Slovakiyada bu ölkənin “Luçenec” komandası ilə qarşılaşıb.

Gərgin keçən görüş meydan sahiblərinin 5:2 hesablı qələbəsi ilə başa çatıb. Komandamızın heyətində qolları Nihad İsmayılov və Ramiz Çovdarov vurub.

Qeyd edək ki, birinci oyunda Litva çempionu “Vytis” komandasına 0:1 hesabı ilə məğlub olan baş məşqçi Joze Alesio Da Silvanın yetirmələri ikinci görüşdə Maltanın “Valetta” komandası ilə heç-heçə edib - 1:1.

Digər oyunda Maltanın “Valletta” klubunu 5:0 hesabı ilə məğlub edən Litvanın “Vytis” komandası elit-raunda vəsiqə qazanıb.

## UEFA-nın yeni reytinq siyahısı açıqlanıb

Avropa Liqasının qrup mərhələsinin II turunun oyunlarından sonra UEFA-nın yeni reytinq siyahısı açıqlanıb.

Azərbaycan siyahıda bir pillə geriləyərək 18,500 xalla 27-ci mövqeyə enib. Əvəzində eyni xala malik Qazaxıstan 26-cı pilləyə yüksəlib.

Dəyişikliyə “Qarabağ”ın İngiltərənin “Arsenal” klubuna 0:3 hesablı məğlubiyyəti və “Astana”nın Fransanın “Renn” klubuna 2:0 hesabı ilə qalib gəlməsi səbəb olub.

Qeyd edək ki, siyahıya 89,712 xalla İspaniya başçılıq edir. İngiltərə 67,748 xalla ikinci, İtaliya 67,725 xalla üçüncü pillədə qərarlaşıb. Türkiyə isə 32,200 xalla 10-cu yerdədir.

## “Barselona” ilk “milyarder” idman klubudur

İspaniyanın “Barselona” futbol klubu dünyada ilk idman klubudur ki, gəlirləri 1 milyard dolları aşıb. 2017-2018-ci illər mövsümündə “Barselona”nın qazancı 1,05 milyard dollar olub. Klub ardıcıl olaraq beş il öz gəlirlərinin həcminə görə”rekordçudur”. Həmçinin bildirilir ki, 2018-ci il iyunun 30-u üçün olan məlumata görə, İspaniya klubunun xərcləri 1,017 milyard dollara, borcu isə 181,3 milyon dollara bərabər olub. 2021-ci ildə gəlirin məbləğini 1,15 milyard dollara çatdırmaq planına uyğun olaraq 2018-2019-cu illər mövsümü üçün büdcədə 1,1 milyard dollar gəlir əldə etmək nəzərdə tutulur.

Qeyd edək ki, “Barselona” klubu ötən mövsüm İspaniya çempionu və ölkə kubokunun sahibi olub.

# 1 oyunda 44 qol

Rusiya futbol çempionatında bir oyunda 44 qol vurulub. Məhsuldar hesab üçüncü divizon komandaları arasında keçirilən çempionatın 27-ci turu çərçivəsində qeydə alınıb. Belə ki, SŞ-75 və “İnter” komandalarının oyununda meydan sahibləri 43:1 hesabı ilə qələbə qazanıblar. Görüş “Abvtomobilçi” stadionunda oktyabrın 5-də təşkil olunub.



Bu hesab həmin liqa üçün yeni rekordu müəyyənləşdirib. Belə ki, indiyə qədər heç bir komanda rəqib qapısından 43 top keçirməmişdi.

# DÜNYA idmanı



## Həbib Makqreqora qalib gəldi, amma...



Oktyabrın 7-da qarışıq döyüş növlərinin (MMA) UFC 229 kateqoriyası üzrə ən güclü idmançılar hesab edilən rusiyalı Həbib Nurməhəmmədov və irlandiyalı Konor Makqreqor arasında döyüş keçirilib.

Las-Vegas şəhərində "T-Mobile Arena"da keçirilən döyüşdə Həbib Nurməhəmmədov yüngül çəki dərəcəsində UFC çempionu titulunu qazanıb. Qeyd edək ki, rusiyalı döyüşçü indiyədək peşəkar karyerasında bir dəfə də məğlub olmayıb. Yəni keçirdiyi 27 döyüşün hamısında qalib gəlib.

UFC versiyası üzrə dünyanın ən populyar və güclü idmançılarından hesab edilən irlandiyalı Konor Makqreqor isə 24 döyüşün 21-də qalib gəlib. O, ilk dəfə 2015-ci ildə UFC çempionu adını qazanıb.

Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşma 30 yaşlı qaydasız döyüşçü rusiyalı Həbib Nurməhəmmədovun qələbəsi ilə başa çatıb. Həbib dördüncü raundda hakimlərin yekdil qərarı ilə irlandiyalı Konor Makqreqor üzərində qələbə qazanıb.

Həbib Nurməhəmmədov yüngül çəkidə çempion adını 2017-ci ildə amerikalı döyüşçü El Yakvintanı məğlub edərək qazanıb.

Döyüşdən sonra kütləvi dava baş verib. UFC-nin prezidenti Deyn Uayt rusiyalı döyüşçünün çempion titulundan məhrum olunacağını deyib.

Onun sözlərinə görə, Həbib cərimə və ya diskvalifikasiya oluna bilər: "Əgər diskvalifikasiya uzunmüddətli olacaqsa, biz onun çempion titulundan məhrum edəcəyik. Əlbəttə ki, sanksiyalar olacaq. Döyüşdən sonra kütlənin üstünə hücum edən oğlan burada bir daha döyüşə bilməz".

Onun sözlərinə görə, araşdırmanın sonuna qədər Həbib Nurməhəmmədova döyüş üçün nəzərdə tutulan iki milyon dollar məbləğində qonorarı almayacaq. İdmançıya həmçinin televiziya yayımından əldə olunan gəlirdən də faiz ödənilməyə bilər.




## Lyuis Hemilton 71-ci qələbəsini qazanıb




Formula-1 üzrə dünya çempionatının Yaponiyada keçirilən Qran-pri mərhələsinə yekun vurulub.

Qeyd edək ki, Qran-pri yarışlarının keçirildiyi "Sudzuka" trassı 1961-ci ildə tikilib və 1987-ci ildən Formula-1 yarışlarına ev sahibliyi edir.

"Mercedes"in britaniyalı pilotu Lyuis Hemilton 53 dövrəlik mübarizənin yekununda finiş xəttini birinci keçərək yarışın qalibi olub. Bununla Hemilton karyerası ərzində 71-ci qələbəsini qazanıb. Onun finlandiyalı komanda yoldaşı Valtteri Bottas finişə ikinci çatıb. "Red Bull" pilotu Maks Ferstappen üçüncü pillədə qərarlaşıb.

Ümumi sıralamada Lyuis Hemilton Yaponiya Qran-prisindən sonra 331 xalla 1-ci pillədəki mövqeyini daha da möhkəmləndirib. "Ferrari"nin almaniyalı pilotu Sebastyan Fettel 264 xalla ikinci, Valtteri Bottas 207 xalla üçüncü, finlandiyalı pilot Kimi Raykonnen 196 xalla dördüncüdür.

Avtomobillərin yarışında isə "Mercedes" 538 xalla qalib gəlib. "Ferrari" 460 xalla ikinci, "Red Bull" isə 319 xalla üçüncü yeri tutub.

Yaponiya Qran-pri yarışlarında qələbə rekordu almaniyalı Mixael Şumaxerə məxsusdur - 7 qələbə. Hazırda fəaliyyətdə olan pilotlardan isə bu trasda Sebastyan Fettel və Lyuis Hemilton 4 dəfə, ispaniyalı Fernando Alonso 2 dəfə və finlandiyalı Kimi Raykkonen isə 1 dəfə qələbə qazanıblar.

Dünya çempionatının növbəti Qran-Pri mərhələsi oktyabrın 19-21-də ABŞ-da keçiriləcək.

## Dünya çempionu qəzanın qurbanı oldu

Boks üzrə sabiq dünya çempionu Qrasiano Rokkicani avtomobil qəzasında həyatını itirib.

54 yaşlı almaniyalı veteran idmançı İtaliyada qəzaya uğrayıb. Boksçunun meneceri qəzanın təfərrüatını açıqlamayıb.

Qeyd edək ki, vaxtilə Qrasiano Rokkicani IBF (Beynəlxalq Boks Federasiyası), habelə WBC (Ümumdünya Boks Şurası) versiyası üzrə dünya çempionu olub. O, peşəkar rinqdə keçirdiyi 48 döyüşdən 41-də qalib olub.

## Şikayəti rədd edildi

Avropa İnsan Hüquqları Məhkəməsi futbol üzrə Rumıniya yığmasının sabiq hücumçusu Adrian Mutunun appelyasiya şikayətini rədd edib.

Bir müddət əvvəl İdman Arbitraj Məhkəməsinin çıxardığı qərara əsasən, Adrian Mutu İngiltərənin "Çelsi" klubuna 17 milyon avro ödəməlidir. Vaxtilə bu komandada çıxış edən Mutu müqavilə şərtlərini pozduğu üçün cəzalandırılıb.



## İlk qələbəsini dostuna həsr edib

İspaniyalı Ana Karrasko sürətli motoyürüş üzrə dünya çempionatının "Supersport 300" kateqoriyasında qələbə qazanan ilk qadın idmançı olub.



Ana Karrasko ikinci yeri tutan Miku Peresi cəmi bir xal qabaqlayıb. Onun motosiklinin ağırlığı digərilərininkindən 14 kq az idi və çoxları bunu yaxşı hal hesab etmirdilər. Amma bu vəziyyət onun uğur qazanmasına mane olmadı.

Ana Karrasko bu qələbəni 2016-cı ildə trasda həlak olmuş dostu Luis Saloma və onun ailəsinə həsr edib. Bundan başqa, qadın idmançı "Kawasaki" şirkətinə və mübaliğəsiz tarixi nailiyyətə töhfəsini verən öz texniki dəstək qrupuna təşəkkürünü bildirib.

## Messi "ilk onluq"dan kənarda qaldı

"France Football" nəşri ilin ən yaxşı futbolçusuna verilən "Qızıl top" mükafatına ikinci 5 namizədin adını açıqlayıb.

Bunlar Kriştianu Ronaldo (Portuqaliya, "Real"/"Yuventus"), Kevin de Brüyne (Belçika, "Mançester Siti"), Roberto Firmino (Braziliya, "Liverpul"), Dieqo Qodin (Uruqvay, "Atletiko") və Tibo Kurtuadır (Belçika, "Çelsi"/"Real).

Qeyd edək ki, bundan əvvəl Serxio Aqüero (Argentina, "Mançester Siti"), Qaret Beyl (Uels, "Real"), Kərim Benzema (Fransa, "Real"), Alisson Bekker (Braziliya, "Liverpul") və Edinson Kavaninin (Uruqvay, PSJ) adı açıqlanıb .

Dünyanın ən yaxşı futbolçusu mükafatı uğrunda 30 oyunçu mübarizə aparacaq. Qalan namizədlərin adları qarşıdakı günlərdə açıqlanacaq.

## Klopp Millətlər Liqasını "ən mənasız turnir" adlandırdı

"Liverpul"un baş məşqçisi Yurgen Klopp UEFA Millətlər Liqasını tənqid edib. Almaniyalı mütəxəssis yarışı mənasız turnir adlandırıb: "Təəssüf ki, "Mançester Siti" ilə oyundan sonra futbolçularımız dünyanın ən mənasız turniri olan Millətlər Liqasında oynamaq üçün öz yığmalarının düşərgəsinə yollanacaqlar".

Klopp daha sonra kinayə ilə deyib: "Ümid edirəm ki, onlar milli komandalarından sağlam qayıdacaq və Premyer Liqa, Çempionlar Liqası kimi asan turnirlərdə oynayacaqlar.

Əgər futbolçuları formada görmək istəyirsinizsə, onlara istirahət üçün fasilə verin. Oyunçuların yığmaya getməsi elə də ciddi və böyük problem deyil. Əgər indi hansısa millinin baş məşqçisinə zəng vurub 1-2 futbolçunu düşərgəyə çağırmamağı xahiş etsəm, mənə Millətlər Liqasına görə təzyiq altında olduğunu söyləyəcək. Açığı, bilmirəm, orada nə qazanmaq olar. Amma gələn yay bu turnirdə hansısa final oyunu keçiriləcək".

## "Real"da məşqçi dəyişikliyi gözlənilir

Madrid "Real"ının hazırkı baş məşqçisi Xülyen Lopeteqini vaxtından əvvəl istefaya göndərəcəyi təqdirdə boş qalmış vəzifəyə əsas namizəd kimi Antonio Konteni görür. Madrid klubunda hesab edirlər ki, italiyalı mütəxəssis hazırda işsiz olan məşqçilər arasında "Real"ın baş məşqçisi vəzifəsinə ən yaxşı namizəddir.

Qeyd edək ki, Lopeteqinin komandası La Liqada son 3 turda qələbə qazana bilməyib və 8 turdan sonra lider "Sevilya"dan iki xal geridə olmaqla 4-cü yerdə qərarlaşıb.



Lopeteqinin "Real"dakı taleyi oktyabrın 28-də "Barselona" ilə prinsipial matçdan sonra həll oluna bilər.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19